

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Azərbaycan: etnik və dini dözümlülük simvolu



15

## Heydər Əliyev Fondunun reallaşdırdığı layihələr




3

**Qarabağ və Şərqi Zəngəzurda dini tarixi abidələrimiz yenidən qurulur**


# SƏS

№ 181 (6864)

5 oktyabr 2023-cü il.
Qiymәti 60 qәpik


# Qranada sammiti: qədər və sonra




5

### "İkili standart siyasətini, nəhayət dayandırmaq lazımdır"



2

### Fransanın ermənipərəst mövqeyinin PƏRDƏARXASI



13

### Təhlükəli oyuncaqlarla necə mübarizə aparmalı?



11

## Bilik xəzinəsini milyonlara bəxş edən varlıq



8

## Niyə Əli Kərimli Vardanyanı Qubad İbadoğlu ilə müqayisə edir?



14

# ”İkili standart siyasətini, nəhayət dayandırmaq lazımdır”

Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov Fransanın ”Radio J” radio kanalına müsahibə verib. AZƏRTAC xəbər verir ki, Elçin Əmirbəyov Azərbaycan tərəfindən Qarabağda həyata keçirilən lokal xarakterli antiterror tədbirləri barədə məlumat verib. Bildirib ki, antiterror tədbirlərində məqsəd legitim hərbi hədəfləri yox etmək idi: ”Bu, bizim suveren ərazimizdə olan Ermənistan silahlı qüvvələrinə aid qoşuna qarşı idi. Üç il idi Ermənistan öz üzərinə bu məsələ ilə əlaqədar öhdəlik götürmüşdü ki, qoşunlarını bizim ərazimizdən çıxarsın. Amma o, bundan imtina edirdi. Üstəlik onların son iki həftədəki təxribatları bizim çoxsaylı hərbçimizin və mülki şəxslərimizin həlak olmasına səbəb olmuşdu. Ona görə də bu, bizim reaksiyamız, cavabımız idi. Hədəfimiz qəti surətdə mülki şəxslər deyildi. Yenə deyirəm, hədəfimiz legitim hərbi hədəflər idi”.

Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi bildirib ki, hazırda qeyri-qanuni separatçı qurum təslim olub. Onlar özləri öz qeyri-qanuni strukturlarının buraxıldığını elan ediblər. ”Hazırda biz erməni icmasının təmsilçiləri ilə dialoq aparırıq. Onlarla artıq 3 görüş keçirilib. Onlarla erməni əhalisinin Azərbaycana reinteqrasiya məsələləri müzakirə edilib”, - deyə o əlavə edib.

Aparıcının ”Siz effektiv şəkildə izah edirsiniz ki, Qarabağda yaşayan ermənilər getməkdə və qalmaqda sərbəstdirlər... Niyə onların hamısı getməyi seçiblər” sualına cavabında Elçin Əmirbəyov deyib: ”Bəli, bu, çox yaxşı sualdır. Ona görə ki, biz, Azərbaycan hökuməti olaraq antiterror tədbirləri başlayandan bəri mülki əhaliyə elan etmişdik ki, onlar bu hərbi tədbirlərin hədəfi deyillər. Əksinə, çalışıldı ki, onlar qalmaqlarına əmin edilsinlər. Bilmirəm. Ola bilər ki, qeyri-qanuni separatçı qurum bütün silah-sursatı təhvil verdikdən sonra mülki əhali öz təhlükəsizliyindən çox əmin olmadı. Hətta bir həftədən bəri onların yerlərini tərk etməmələri üçün çox cəhdlər olmuşdu. Onlara lazımi humanitar yardımlar göstərilmişdi. Dərman preparatları, ambulanslar, digər ləvazimatlar göndərilmişdi. Elektrik verilişi bərpa edilmişdi. Radio və televiziyalar vasitəsilə də analoji çağırışlar edilmişdi ki, həmin əhali arasında panika olmasın. Bu həqiqətdir ki, evlərini tərk etmək qərarı onların özlərinin şəxsi və könüllü qərarıdır. Biz bundan təəssüf hissi keçiririk. Bir daha deyilir ki, əlbəttə, bu insanlar, onlar öz evlərinə qayıtmaq hüququnu özlərində saxlayırlar”.

Ermənistanı Qarabağla birləşdirən yolun ekofəallar tərəfindən kəsilməsi iddiasına da cavab verən Elçin Əmirbəyov qeyd edib ki, bu, həqiqəti əks etdirmir: ”Beynəlxalq Qırmızı Xaç Komitəsi bütün bu aylar ərzində orada idi. Onlar oraya lazımı tibbi vasitələr gətirirdilər. Onlar, həmçinin ərazini tərk etmək ehtiyacı olanlara da dəstək verirdilər. Bu, həqiqət deyil. Bu yol minaların, hərbi vasitələrin, həmçinin erməni hərbçilərin daşınmasının qarşısının alınması üçün kəsilmişdi”.



E.Əmirbəyov, həmçinin Ermənistanla aparılan danışıqlar barədə də məlumat verib. Bildirib ki, Azərbaycan Ermənistanla sülh müqaviləsinin imzalanmasını istəyir.

Vurğulanıb ki, işğaldan azad olunan ərazilər vaxtilə Ermənistan tərəfindən tamamilə etnik təmizləməyə məruz qalmış, azərbaycanlılar oradan qovulmuşdu: ”Həmin ərazilərdə 1 milyon azərbaycanlı Ermənistan tərəfindən etnik təmizləməyə məruz qalmışdı. Ancaq təəssüf ki, o vaxt Qərb bununla maraqlanmamışdı. İkili standart siyasətini, nəhayət dayandırmaq lazımdır... Bütün insanlar kimi, bizim insanlarımızın da eyni hüquqları var”.

İşğaldan azad olunan ərazilərə BMT missiyasının səfər etdiyini xatırladan Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi diqqətə çatdırıb ki, həmin missiyanın tərkibində müxtəlif xarici KİV-lərin təmsilçiləri də olub. ”Onlar təsdiq ediblər ki, orada bir neçə yüz insan qalıb... Onların geri qayıtması üçün Azərbaycan hökumətinin səylərini də gözdən qaçırmamaq lazımdır. Hazırda ermənilər bu ərazidə qalmaq istəməyiblər. Üç on illik ərzində bu ərazilərin Ermənistan tərəfindən işğalı öz izini buraxıb. Xatırladım ki, BMT də bu işğalı qınamışdı. İndi isə lazımdır ki, bir çıxış yolu tapılsın, birgəyaşayış təmin olunsun. Həm azərbaycanlılar, həm də ermənilər üçün.”, - deyə E.Əmirbəyov əlavə edib.



# Volodimir Zelenski
## Prezident İlham Əliyevə zəng edib

Oktyabrın 4-də Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Prezident Volodimir Zelenski Azərbaycanın Ukraynaya göstərdiyi əhəmiyyətli humanitar yardıma, xüsusilə qış şəraitində enerji sektoruna verilən dəstəyə görə təşəkkürünü bildirib.

Telefon söhbəti əsnasında dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə bir daha dəstək ifadə olunub, regional təhlükəsizlik, mövcud təhdidlər və gələcək əməkdaşlıq formatlarına dair fikir mübadiləsi aparılıb.

# Rusiya XİN: ”Moskva Qarabağ ermənilərinin bir hissəsinin qayıtmaq istədiyi barədə informasiya alır”

Moskva Qarabağ ermənilərinin bir hissəsinin ”qayıtmağı düşündükləri” barədə informasiya alır. AZƏRTAC xəbər verir ki, bu barədə Moskvada keçirdiyi brifinqdə Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib. M.Zaxarova deyib: ”Biz Qarabağ sakinlərinin bir hissəsinin qayıtmağı düşündükləri barədə informasiya alırıq, onlar bunu ifadə edirlər. Həmin şəxslərə bunun üçün şərait yaradılacaq və onların təhlükəsizliyi təmin ediləcək. Belə olacağı təqdirdə, biz Azərbaycan tərəfi ilə təmas şəraitində bu proseslərə də kömək edəcəyik”.



Rusiya xarici siyasət idarəsinin rəsmi nümayəndəsi, həmçinin Qarabağda saxlanılan separatçılarla bağlı suala da cavab verib. O qeyd edib ki, onların hamısı Ermənistan vətəndaşlarıdır. Diplomat vurğulayıb: ”Əgər rəsmi İrəvanın sizin söylədiyiniz həmin vətəndaşlarına kömək məqsədi ilə nə etdiyini soruşsanız, bu suala Ermənistan XİN-in rəsmi nümayəndəsi cavab verməlidir. Rusiyanın nə etdiyini soruşmaq istəsəniz, ilk növbədə xatırlatmaq lazımdır ki, sözügedən şəxslər Ermənistan vətəndaşlarıdır. Onların bəziləri Rusiya vətəndaşlığından imtina edib, bir neçəsinin isə əvvəldən yalnız Ermənistan vətəndaşlığı olub. Hazırda sizin xatırlatdığınız insanların heç biri Rusiya vətəndaşı deyil”.

# Ukrayna nəşri: ”Azərbaycan yenə sülh əlini uzadıb”


Київ дипломатичний
KYIV Diplomatic
Головна Новини Журнали Партнери Про Нас
Новини

Азербайджан знову простягнув руку миру

Більше століття Вірменія проводила упереджену і брехливу політику щодо Азербайджану, а сьогодні, імітуючи те, що сталося в Карабахському регіоні, намагається нав'язати її світовій спільноті.

Ось такий галас вони здіймають щодо вірменських «біженців», які добровільно покинули Карабаський регіон. 30 років тому вірмени почали війну і окупували землі Азербайджану. У 1990-х роках вірменські сепаратисти чинили великі звірства проти нашого народу. З особливою жорстокістю та тортурами вбивали наших співвітчизників, піддавали їх геноциду. Вони перетворилися на переселенців на своїй же батьківщині.

**Ukraynanın ”Kyiv Diplomatic” nəşrində AZƏRTAC-ın Ukrayna, Belarus və Moldova üzrə xüsusi müxbiri Emil Hüseynlinin Azərbaycanın Qarabağ bölgəsində apardığı reinteqrasiya prosesinə Ermənistanın qərəzli mövqeyinə dair məqaləsi dərc olunub. ”Azərbaycan yenə sülh əlini uzadıb” sərlövhəli məqalədə Ermənistanın Qarabağ bölgəsində baş verənləri imitasiya edərək dünya birliyinə sırımağa cəhdindən bəhs edilib.**

Məqalədə yazılır: ”Ermənistan bir əsrdən çoxdur ki, Azərbaycana qarşı necə qərəzli, yalan siyasət aparıbsa, bu gün də Qarabağ bölgəsində baş verənləri imitasiya edərək dünya birliyinə sırımağa cəhd edir. Bu, özünü daha çox Qarabağ bölgəsindən könüllü gedən erməni ”qaçqın”larla bağlı qaldıqdıqları səs-küydür. 30 il əvvəl müharibəni ermənilər başladı və Azərbaycan torpaqlarını işğal etdi. 1990-cı illərdə erməni separatçılar xalqımıza qarşı böyük vəhşiliklər törədiblər. Soydaşlarımız xüsusi amansızlıq və işgəncələrlə qətlə yetirilib, soyqırımına məruz qalıblar. Onlar öz vətənində məcburi köçkünə çevriliblər.

Ancaq indi vəziyyət necədir? Tam fərqli. Azərbaycan heç kimin torpağına göz dikməyib. Əgər hazırda Ermənistanın iddia etdiyi kimi ”qaçqın” varsa, bu, problem deyil, onlar Qarabağda qalıb, yaşaya bilərlər. Bu gün Qarabağı könüllü tərk edərək, Ermənistana gedən erməni əsilli şəxslərin Azərbaycanın humanistliyi sayəsində Laçın sərhəd-buraxılış məntəqəsindən sərbəst keçidi üçün şərait yaradılır. Onlara qarşı heç bir zorakılıq edilmir. Azərbaycan Qarabağ ermənilərinin reinteqrasiyasını istədiyini bəyan edib, oradakı sakinlərə ərzaq və tibbi yardım göstərir”.

Müəllif qeyd edir ki, bu gün Azərbaycan çoxmillətli ölkədir. Azərbaycanın əsrlər boyu çoxmillətli, çoxdinli, çoxkonfessiyalı cəmiyyəti olub. Bu, ölkənin 30 illik müstəqillik dövründə daha da güclənib.

”Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bəyan edib ki, ölkəmiz Cənubi Qafqazda sülhün bərqərar olmasında maraqlıdır və açıq dialoqa hazırdı. Azərbaycan bu gün regionda birgə əməkdaşlığın, mənfəət götürülməsi, qarşılıqlı faydanın həyata keçirilməsini istəyir”, - deyə məqalədə vurğulanır.

Müəllif daha sonra yazır: ”Necə ola bilər ki, Azərbaycanda digər etnik xalqlar normal, sivil yaşamağı bacarır, tək ermənilər bunu bacarmır? Deməli ki, separatçılıqla məşğul olurlar, Azərbaycanın konstitusion hüququna qarşı çıxırlar. Ermənistan və onun xaricdəki havadarları yalan çıxışlardan qurtulmağı düşünməlidirlər. Səhv və əsassız iddialar yaymaqla Ermənistan dünya ictimaiyyətinə qeyri-sağlam ideyalar aşılamaqdan əl çəkməlidir. Yerli ermənilərin reinteqrasiyası Azərbaycan dövlətinin prioritet mövzusuna çevrilib. Azərbaycan yenə sülh əlini uzadıb və buna davam edəcək. Azərbaycan vətəndaşı olan ermənilər digər etnik xalqlar kimi bütün imtiyazlara, Azərbaycan Konstitusiyası ilə təsbit olunmuş hüquqlara sahib olacaqlar”.

# Heydər Əliyev Fondunun reallaşdırdığı layihələr

*Qarabağ və Şərqi Zəngəzurda dini tarixi abidələrimiz yenidən qurulur*

**İctimai, mesenatlıq və xeyriyyəçilik əməlləri, xalqlar arasında dostluğun möhkəmlənməsi, sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyət Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın humanizm prinsiplərindən qaynaqlanır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən layihələr ölkələr arasında əməkdaşlığın inkişafında müstəsna xidmətləri ilə seçilir. Fond təkcə Azərbaycanda deyil, bir sıra məkanlarda geniş aksiyalar həyata keçirir. Bu humanitar və mədəni tədbirlər, artıq beynəlxalq məkana bəlli olan həqiqətdir.**



Heydər Əliyev Fondunun xüsusi diqqət yetirdiyi prioritet sahələrdən biri də ölkəmizdə tolerantlıq ənənələrinin qorunmasıdır. "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi əsasında Heydər Əliyev Fondunun təşəbbüsü ilə dini abidələr bərpa edilərək, istifadəyə verilib. Heydər Əliyev Fondu tərəfindən "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi







çərçivəsində ölkənin müxtəlif yerlərində çoxsaylı məscid və ibadət evləri bərpa edilib. Xristian dini abidələri, alban kilsələri, o cümlədən Nic qəsəbəsindəki kilsə, Kiş kilsəsi təmir edilib. Bakının Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsində "Xanım Fatimeyi Zəhra" məscidinin yeni binasında yaradılan şəraiti də bura əlavə edə bilərik.

Qeyd olunan layihə çərçivəsində Bakıdakı Pravoslav kilsəsində təmir-bərpa işləri aparılıb. Layihənin digər tərkib hissəsi "Or-Avner" Beynəlxalq Fondu ilə birgə Bakıda yaşayan yəhudi uşaqları üçün 600 yerlik Təhsil Mərkəzi inşa olunub. Azərbaycanda məskunlaşan xalqların etnomədəni komponentlərinin inkişafına yönələn tədbirlərin həyata keçirilməsi istiqamətində də Azərbaycanda görülən işlər, məhz müasir dövrümüzdə dövlətin bütün millətdən olan insanlara diqqət və qayğı ilə yanaşmasının nəticəsidir. Fond tərəfindən Bakıdakı Müqəddəs Məryəm kilsəsi təmir və bərpa olunmuşdur. Avropada Versal Sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpasında, bir sıra digər layihələrdə də təşəbbüskar olaraq iştirak edib. Heydər Əliyev Fondu xristian aləminin incəsənəti, mənəvi dəyərləri, onun mədəniyyətinin daha da nümunəvi tərzdə parlamasına öz töhfəsini verir. Dünyanın bir sıra nüfuzlu mükafatlarına layiq görülməsi də, elə bu bəşəri dəyərlərə münasibətinin və fəaliyyətinin nəticəsidir.

### DAĞINTILARA MƏRUZ QALMIŞ İBADƏT YERLƏRİMİZ

Damarlarında azərbaycanlı qanı qövr edən Böyük Ziyalının işığında Azərbaycanın hər bir bölgəsində əməyini, layihələrini görürük. Bu hər kəsi qürurlandırır. Mehriban xanım bütün fəaliyyəti dövründə xalqın maraqlarını əsas götürərək, ictimai, sosial layihələri ilə öz ətrafında böyük imic formalaşdırıb. 44 gün davam edən Vətən müharibəsində Müzəffər Azərbaycan Ordusunun təcavüzkar Ermənistanı məğlub edərək, işğaldan azad etdiyi Vətən torpaqlarında bu gün həyata keçirilən tikinti-bərpa işlərində Mehriban xanım Əliyevanın da həyata keçidiyi layihələr töhfəsini verməkdədir. Artıq bu işlərin ilkin addımlarını və reallaşan layihələri görürük. Heydər Əliyev Fondu məscidlərin təmirini öz üzərinə götürüb. Qeyd edək ki, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva 2020-ci il dekabrın 8-də Fondun işğaldan azad edilən ərazilərdəki mədəni-dini abidələrin, məscidlərin bərpası üzrə layihəyə başladığını bildirmişdir. Mehriban xanımın göstərişi ilə icrasına başlanılan layihəyə yerli mütəxəssislərlə yanaşı, xarici ekspertlər də dəvət olunublar. Bərpa prosesində Avstriya, Böyük Britaniya, Bolqarıstan, İtaliya, Latviya, Rusiya, Türkiyə, Gürcüstan və digər ölkələrdən gələn mütəxəssislər bu gün də iştirak edirlər. Bildiyimiz kimi, Şuşa şəhərində Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işləri yekunlaşdı və istifadəyə verildi. Həmçinin böyük Azərbaycan şairi Molla Pənah Vaqifin büstü, görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəli Fondun dəstəyi ilə Şuşa şəhərində yenidən ucaldılıb. Minlərlə qədim, tarixi tikiliyə, dini, milli abidəyə yeni həyat verən Heydər Əliyev Fondu işğaldan azad olunan ərazilərdə dini abidələrin bərpası üçün işləri davam etdirir. Fondun həyata keçirdiyi layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçirilir.

### ÖLKƏ ƏHƏMİYYƏTLİ TARİXİ-MƏDƏNİYYƏT ABİDƏLƏRİ YENİDƏN QURULUR

Şuşa şəhərində Heydər Əliyev Fondu tərəfindən də bir sıra tarixi, mədəni abidələrin bərpası üzrə layihələr həyata keçirilir. Şuşa şəhəri işğal altında olduğu müddətdə ermənilər tərəfindən dağıdılmış Aşağı Gövhər Ağa, Yuxarı Gövhər Ağa və Saatlı məscidləri ilkin layihəyə uyğun olaraq bərpa olunmağa başlanıldı. Hər üç məscid ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri siyahısındadır. Artıq Şuşada Yuxarı Gövhər Ağa məscidinin əsaslı yenidənqurma və bərpa işlərindən sonra açılışı oldu. Qeyd edək ki, məscidin müəllifi məşhur memar Kərbəlayi Səfixan Qarabağidir. Bu, müəllifin ən yaxşı əsərləri sırasına daxildir. Məscidin minarələrinin ornamentləri və otaqların divar rəsmləri Şuşa şəhərində yaşayıb-yaratmış şair, rəssam və xəttat Mir Möhsün Nəvvab Qarabaği tərəfindən işlənib. Şuşa şəhəri işğal altında olduğu müddətdə Yuxarı Gövhər Ağa məscidi ermənilər tərəfindən dağıdılmışdı. Şəhər işğaldan azad edildikdən sonra məsciddə başlanılan konservasiya və bərpa işləri Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən Avstriyanın "Wehdorn Architekten" şirkətinin nəzarəti ilə ilkin memarlıq üslubuna uyğun aparılıb. Layihə "PAŞA Holding"in maliyyə dəstəyi ilə həyata keçirilib.

Bununla yanaşı, Şuşada Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Saatlı məscidinin açılışı olub. Şuşadakı Saatlı məscidi 1883-cü ildə memar Kərbəlayi Səfixan Qarabağinin layihəsi əsasında inşa olunub. XIX əsrin memarlıq abidəsi olan Saatlı məscidinin inşa edildiyi yerdə əvvəl Molla Pənah Vaqifin dərs keçdiyi bir-birinə bitişik mədrəsə və məscid binaları olub. Şuşa şəhəri işğal altında olduğu müddətdə digər məscidlər kimi Saatlı məscidi də ermənilər tərəfindən dağıdılmışdı.

İşğaldan azad olunan ərazilərimizdə dini abidələrin təmir və bərpası davamlı olaraq həyata keçirilir. Qeyd edək ki, Ermənistanın torpaqlarımızı işğal altında saxladığı illərdə Zəngilan rayonunda da tarixi, dini, mədəniyyət abidələrimiz erməni vandalizminə məruz qalıb, dağıdılıb, təhqir edilib. İşğal dövründə Zəngilan şəhərindəki məsciddən də tövlə kimi istifadə olunub. İşğal altındakı ərazilərimiz azad edildikdən sonra Qarabağdakı tarixi, dini və mədəniyyət abidələrinin bərpası layihələri çərçivəsində Zəngilan məscidində də bərpa-tikinti işləri başlanılıb. Zəngilanda inşa olunan məscidin təməli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2021-ci il aprelin 26-da qoyulub. Ötən müddətdə yeni məscidin layihəsi işlənilib və tikintiyə başlanılıb. Məscidin inşası "Paşa Holding" MMC-nin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilib. Hazırda məscidin daxili interyerində işlər davam etdirilir, o cümlədən ərazidə abadlaşdırma işləri aparılır. Layihənin 2024-cü ilin aprelində başa çatdırılması nəzərdə tutulur.

Erməni silahlılarının işğalı altında olduğu illərdə Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış ibadət yerlərinin bərpası üzrə işlərin bir qismi artıq başa çatdırılıb. Bir zamanlar ermənilərin vəhşicəsinə dağıtdığı, tövləyə çevirdiyi müqəddəs dini məkanlarımız yenidən dirçəlir.

***Zümrüd BAYRAMOVA***

# Dmitri Solonnikov: "Qarabağ məsələsinin yekun həlli ilə bu mövzu bağlanıb"

*"Həm Azərbaycana, həm də Rusiyaya qarşı təxribatlar ola bilər, amma bu heç bir nəticə verməyəcək"*

Qarabağdakı separatçı rejimin ləğvi ilə bağlı Azərbaycanı hansı sınaqlar gözləyir? Müasir Dövlət İnkişafı İnstitutunun direktoru Dmitri Solonnikov "Moskva-Baku" portalına müsahibəsində Qarabağda aparılmış antiterror əməliyyatından və bunun nəticəsi olaraq Ermənistanın Qarabağdakı separatçı rejiminin özünü ləğv etməsindən sonra Azərbaycanı hansı çağırışların gözlədiyi haqda fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.



***- Azərbaycanın Qarabağda antiterror tədbirləri həyata keçirdikdən sonra yaranmış vəziyyəti necə qiymətləndirirsiniz və necə xarakterizə edə bilərsiniz?***

- Azərbaycanın Qarabağda həyata keçirdiyi bir günlük antiterror tədbirləri və onun əvvəllər Ermənistan tərəfindən işğal olunmuş ərazilərinin Bakının nəzarətinə qaytarılması məsələsinin yekun həllinə gətirib çıxarması Azərbaycan üçün böyük uğurdur.

Təxminən 35 ilə yaxın Azərbaycan ərazilərində parazitlik edən erməni separatçı rejimi süquta və tam iflasa uğradı. Bütün bu illər ərzində torpaqlarını geri qaytarmağa hazırlaşan Azərbaycan özünün regional və dünya statusunu, hərbi qüdrətini artıraraq, sözün əsl mənasında onu darmadağın etdi, yerlə-yeksan etdi. Beynəlxalq hüquq zəfər çaldı. Separatçılar özləri də "təşəkkül"lərinin mövcudluğunu dayandırdıqlarını etiraf etdilər. Aydındır ki, Qarabağ bölgəsində və Ermənistanın özündə erməni əhalisini yoluxduran Qarabağdakı separatizm ideoloqları çoxdan havaya uçub. Amma bununla belə, radikal separatçılıq ideyalarının cəmiyyətə nə qədər güclü yeridildiyini nəzərə alsaq, xaricdə nə qədər erməni lobbiçiləri beynəlxalq strukturların və bir sıra beynəlxalq oyunçuların maraqsızlığını nəzərə alaraq Qarabağın guya ermənilərə məxsus olması kimi saxta mövzunu təbliğ etməyə müvəffəq olublar.

Qarabağ probleminin həllində separatçıların süqutu tarixi hadisədir. Xatırlayırıq ki, İkinci Qarabağ Müharibəsindən sonra çoxları deyirdi ki, Azərbaycan qalib ölkə kimi indi ciddi sınaq qarşısındadır- ermənilərin Qarabağda məskunlaşması ilə bağlı məsələləri çox diqqətlə və düzgün həll edəcəyini bütün dünyaya göstərmək, bu ermənilərin onun vətəndaşları olduğunu sübut etmək. Güclü informasiya hücumuna, İrəvanın yalançı təbliğatına və onunla birgə oynayan maraqlı tərəflərə baxmayaraq, Bakı situasiyanın öhdəsindən gələ bilir.

Bəli, erməni tərəfinin məlumatına görə, indi 100 mindən çox insan Qarabağı tərk edib. Amma bu onların seçimidir. Rəsmi Bakı heç kimi qovmur, əksinə, qalmağa sövq edir. Və Qarabağı tərk edən bir çox ermənilər bunu separatçı liderlərin məcbur etdiyini deyirlər. Və deyəsən, Azərbaycan vətəndaşlığını almaqdan çəkinmirlər. Və doğrudan da, biz artıq Ermənistan sakinlərinin Azərbaycan Respublikasının vətəndaşlığı üçün müraciət etməsinin video görüntülərini görürük. Onlar böyük çoxmillətli Azərbaycan ailəsinə inteqrasiya edə biləcəklər. Qalanları-Qarabağdan çıxmaq istəyirdilərsə, bu, onların öz seçimidir, azad haqqıdır. Humanitar dəhliz işlədi və insanlar sakit şəkildə hərəkət edə bildilər. İrəvanda nə qədər təsəvvür etmək istəsələr də, onlara qarşı heç bir təqib yox idi. Yeri gəlmişkən, bunu BMT də təsdiqləyib. Heç bir beynəlxalq orqan, heç bir müşahidəçi, heç bir xarici jurnalist iddia edilən "soyqırımı" ilə bağlı hər hansı sübut təqdim edə bilməz. Erməni əhalisinə qarşı guya bəzi "vəhşilikləri" qeydə almaq üçün İrəvanın Qarabağa göndərmək istədiyi bu beynəlxalq missiyanı Azərbaycan öz xeyrinə çevirə bildi. Azərbaycan BMT missiyası ilə razılaşdı və çox düzgün şərh etdi ki, Bakı Qarabağ münaqişəsinin lap əvvəlindən Ermənistanın işğalının nəticələrini sənədləşdirmək üçün təşkilatın missiyasını regiona səfərə çağırıb. Bunun qarşısını almaq üçün maraqlı tərəflər olduğu üçün belə bir missiya göndərilmədi. İndi də Ermənistan Azərbaycanı bezdirmək istəyirdi. Bakı isə hər şeyi yoluna qoyub, öz xeyrinə...

Azərbaycan separatçıların yaraqlıları və əsas fiqurlarını tutmaqda da kifayət qədər effektivdir. Bu həm də Bakının qələbəsidir. Əllərdə qan varsa, təbii ki, buna aidiyyatı olan şəxslər tutularaq məsuliyyətə cəlb ediləlidir.

Prosesin növbəti mərhələsi Bakı ilə İrəvan arasında sülh müqaviləsinin imzalanmasıdır. Bəli, Paşinyan Qarabağ ermənilərinin statusu/hüquqları ilə bağlı bəndi müqaviləyə daxil etməyə çalışdı, lakin buna nail ola bilmədi. İndi Qarabağ məsələsinin yekun həlli ilə bu mövzu bağlanıb.

***- Yenə də hər şey rəvan və yaxşı ola bilməz... Seçim varmı ki, separatçılar hansısa üsyan qaldırsınlar, məsələn, Qərb tərəfdaşları Azərbaycanın təkərlərinə çomaq soxmağa başlasınlar? Siyahıya Baydenin Paşinyana dəstək məktubu da daxildir. Qarabağ ermənilərinin Aİ və digər Qərb dövlətləri tərəfindən maliyyələşdirilməsi. Aİ, Almaniya və s.-dən Azərbaycan əleyhinə bəyanatlar... Fransa və Rusiya Ermənistanın Azərbaycanla sərhəddə yerləşən Sünik rayonunda baş konsulluq açmaq niyyətindədir...***

- Dünyadakı erməni icmasının Ermənistanda və Qarabağda erməniləri aşağılamağa və onlardan öz "dədə-baba" torpaqlarını müdafiə etməyi tələb etməyə çalışması həm gülməli, həm də dramatikdir. Eyni zamanda, onların hardansa uzaqdan bunu deməsi rahatdır və öz təhlükəsizlikləri çərçivəsində bunu tələb edirlər. Bəli, onlar Avropada otururlar, barmaqlarını qaldırmazlar və bölgədə yaşayanlardan nəsə tələb edər və günahlandırarlar.

Təbii ki, Ermənistanın özündə də müxtəlif klanlar, müxtəlif qüvvələr arasında qarşıdurma olub və gedir. Təbii ki, Azərbaycanı yenidən çətin dövr gözləyir. Amma o, buna hazırdır. Yenə də torpaqlarınızın xalqa qaytarılmasını gözləyin.

Əminəm ki, həm Azərbaycana, həm də Rusiyaya qarşı təxribatlar olacaq, əks halda hər şey çox sadə olardı. İrəvanda mərkəzi hökumətin bütün proseslərə tam nəzarət etdiyini söyləmək mümkün deyil. İndi Ermənistana silahı yerə qoymuş separatçıların axınları gəlir. Vəziyyəti qızışdıracaqlarını heç kim istisna etmir. Onlardan başqa kimlər? Bundan başqa, bəzi separatçı liderlər Qarabağdan qaça biliblər. Deməli, terror aktları mümkündür, çox şey mümkündür.

Eyni zamanda biz görürük ki, "Qarabağ klanı" nə hakimiyyətə qayıda bildi, nə də əhali üçün özünü reabilitasiya edə bildi. Obyektiv olaraq Ermənistan tarixi mövcudluğunda yeni səhifəyə qədəm qoyur. Lakin ideya, mahiyyətcə qondarma "Böyük Ermənistan" ideyası iflasa uğramaqdadır. Bəli, Ermənistanda dövlətin sərhədlərini genişləndirmək və yeni "Böyük Ermənistan" qurmaq ideyaları dayanmadan təbliğ olunurdu. Elə insanlar var ki, praktiki olaraq əllərində pulemyotla doğulublar- bu onlara implantasiya edilib. Və başqa heç nə edə bilməzlər. Onların indi necə yaşayacaqları bəlli deyil. Başqa heç nə edə bilməzlər. Bu insanlarda ciddi psixoloji çökmə var və onlar həyatda yeni məna axtarmalıdırlar. Hər halda, Azərbaycanın istənilən formatda bütün "hücumları" dəf etməməsi üçün heç bir səbəb görmürəm.

Eyni zamanda, inanmıram ki, Qərb (yaxşı, bəlkə də ayrı-ayrı Qərb ölkələri) fəal şəkildə Azərbaycanın təkərinə çomaq qoymağa çalışsın. Qərb ikili oyun oynayacaq. Ermənistandan istifadə edərək Rusiyanı Cənubi Qafqazdan sıxışdırmağa çalışmağa davam edir. Azərbaycana təzyiq etməyə çalışır. Bu anti-Rusiya oyunudur. Əgər Ermənistan çoxdan özünü anti-Rusiya meylləri ilə nümayiş etdiribsə, Qərbin Azərbaycana anti-Rusiya nöqteyi-nəzərindən təzyiq göstərəcəyi aydındır. Amma o, öz milli maraqlarına sadiq qalacaq. Rusiya Bakıya müttəfiq kimi lazımdır.

***- Oktyabrın 5-də Avropa İttifaqı Şurasının rəhbəri, Fransa prezidenti və Almaniya kanslerinin vasitəçiliyi ilə İspaniya Qranadasında Azərbaycan və Ermənistan liderlərinin beştərəfli görüşü keçirilə bilər... Hazırkı vəziyyətdə bunun nə mənası var?***

- Belə bir görüş baş tutsa, Makron fürsətdən istifadə edərək Avropaya "sülhməramlı" imicini nümayiş etdirəcək. Və Azərbaycanın beynəlxalq aləmdə öz mövqelərini bərpa etməsi vacibdir. Almaniya da ümumavropa maraqları ilə yanaşı oynamağa çalışır.

***Tərcümə - Elçin Bayramlı***

# "Fransa heç vaxt özünə "kiçik bacı" bildiyi dövləti sonadək dəstəkləməyib"

*DEPUTAT MÜNASİBƏT BİLDİRDİ*

"44 günlük Vətən müharibəsindən sonra torpaqlarımızın işğaldan azad edilməsi, bu ilin sentyabrın 19-da başlanan antiterror tədbirləri və Azərbaycanın öz ərazilərində suverenliyini tamamilə bərpa etməsi Fransanı, o cümlədən digər "erməni dostlarını" narahat etməkdədir. Onların məqsədləri heç də bədnam erməni xalqına yardım göstərmək deyil, Ermənistan adlı qondarma dövlətdən istifadə edərək özlərinin çirkin maraqlarını həyata keçirməkdir. İstər Fransanın XİN rəhbərinin Ermənistana səfəri, istərsə də Fransanın müdafiə nazirinin Ermənistanın müdafiə sənayesinin gücləndirilməsi ilə bağlı verdikləri bəyanatlar Qafqazda sülhün bərqərar olmamasına xidmət edir". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Musa Quliyev deyib.



Onun sözlərinə görə, Fransa Ermənistan vasitəsilə regionda möhkəmlənmək və iqtisadi maraqlarını təmin etmək istəyir: "Fransa artıq uzun illər müstəmləkə siyasəti yeritdiyi Afrikadan qovulmaqdadır və bu qovulma son çatır. Eyni zamanda, gələcəkdə açılacaq Zəngəzur dəhlizi və ya İran üzərindən keçəcək şaxəsi vasitəsilə qədim İpək Yolu üzərində öz iqtisadi maraqlarını təmin etmək niyyəti ilə Qafqazdan əl çəkmək istəmir".

Deputat sözlərinə davam edərək onu da bildirib ki, Fransada erməni lobbisinin fəaliyyəti işin yalnız görünən tərəfidir: "Makron yəqinki seçkilərdə məğlub olacaq. Artıq ilkin seçkilərdə onun məğlubiyyətinin qaçınılmaz olduğu ortaya çıxıb. Ondan sonra hakimiyyətə gələcək qüvvələr yəqinki daha ağıllı və praqmatik siyasət yeridəcəklər. Ən azından Azərbaycanın getdikcə artan nüfuzu və gücü qarşısında hesablaşmalı olacaqlar. Azərbaycanın dünya dövlətləri arasında dostları da çoxdur. Azərbaycanın işi də hər zaman haqq işi olub. Dövlətimiz indi də Qarabağda yaşamış ermənilərin yenidən qayıdıb gəlməsi və Azərbaycan qanunları daxilində yaşaması üçün heç bir maneə törətmədiyini dəfələrlə bəyan edib. Bu, yəqinki belə də olacaq".

M.Quliyev vurğulayıb ki, Fransanın bəyanatlarının arxasında heç bir əməli fəaliyyət dayanmır: "İndiyədək Fransanın tarixinə nəzər salsaq, onlar heç vaxt özlərinə müttəfiq və ya "kiçik bacı" hesab etdikləri dövlətləri sona qədər dəstəkləməyib. Ən azından Fransa Ermənistanın əvəzinə yenidən müharibə edəsi deyil. Fransa ictimaiyyətinin ermənilərə bu qədər isti münasibətin faydasız olduğunu dərk edəcəyi günlər uzaqda deyil. Ermənilər də artıq başa düşdülər ki, Azərbaycanla yalnız əməkdaşlıq vasitəsilə öz mövcudluqlarını qoruyub saxlaya bilərlər. Qarabağda demək olar ki, erməni terrorizminin kökü kəsildi. Erməni terrorçular və Azərbaycana qarşı ağır cinayətlər törədərək əli qana batan hər kəs tutulur. Onlar həm Azərbaycan, həm də dünya ictimaiyyəti qarşısında ədalət məhkəməsinin qarşısına çıxarılacaqlar. Bütün proseslər ona doğru aparır ki, Qafqazın titul xalqı olan Azərbaycanın apardığı siyasət qalib gəlir. Qısa müddət ərzində Azərbaycan və Türkiyənin öndərliyi ilə Qafqazda böyük sülh və tərəqqi təmin olunacaq".

***Ləman Sərraf***

# Qranada sammiti: qədər və sonra

**Azərbaycan hökuməti Xankəndidə səhiyyə və digər məişət xidmətlərinin bərpasına hazırlaşır. Bu barədə BMT-nin Azərbaycanın Qarabağ regionuna səfəri ilə yaydığı bəyanatda deyilir. Missiya burada yerli əhali və digər şəxslərlə söhbət edib, eləcə də səhiyyə və təhsil müəssisələrindəki vəziyyətlə yerindəcə tanış olublar. Nümayəndələrin Xankəndi şəhərində getdikləri yerlərdə mülki və ictimai infrastruktura, o cümlədən xəstəxana, məktəb, yaşayış binaları, mədəni və dini obyektlərə heç bir ziyan dəyməyib.**

Missiya həmçinin Azərbaycan hökumətinin şəhərdə səhiyyə və digər məişət xidmətlərinin bərpasına hazırlaşdığını müşahidə edib. BMT təmsilçiləri fəaliyyət göstərən heç bir mağaza görməyib. Missiyaya son atəşkəsdən sonra dinc əhaliyə qarşı zorakılıq halları ilə bağlı nə yerli əhalidən, nə də digər həmsöhbətlərdən şikayət daxil olmayıb. BMT-nin Azərbaycandakı nümayəndəliyi regiona müntəzəm səfərlərini davam etdirməyi planlaşdırır.

Qeyd edək ki, oktyabrın 1-də səhər saatlarında BMT missiyasının üzvləri yerlərdə vəziyyətlə tanış olmaq və yerli sakinlərin humanitar ehtiyaclarını öyrənmək üçün Qarabağa gəliblər. Bir gün əvvəl BMT baş katibinin nümayəndəsi Stefan Düjarrik bildirmişdi ki, təşkilat nümayəndələri 30 ildir ki, regionda olmayıblar. Eyni zamanda, Azərbaycan Xarici İşlər Nazirliyi missiyanın Bakının dəvəti ilə gəldiyini vurğulayıb. Onlar ümid edirlər ki, səfər sayəsində dünya Azərbaycan hakimiyyətinin regiondakı humanitar fəaliyyəti ilə tanış olacaq. Qarabağın bir sıra şəhərlərində, o cümlədən Xankəndidə Azercell, Bakcell və NAR operatorları artıq rabitə xidmətləri göstərir. LTE texnologiyası da mövcuddur. Şuşada yeni məktəb istifadəyə verilmək üzrədir. Bundan başqa, Azərbaycan erməni əhalisinə tibbi və humanitar yardımın göstərilməsi ilə bağlı bütün faktları diqqətlə qeydə alır. Məsələn, ölü sayının çox olduğu yanacaq çəninin partlamasından sonra Bakı zərərçəkənlərə kömək üçün bir neçə yanğınsöndürən və təcili yardım maşınları göndərdi.






Öz növbəsində Azərbaycanda İnsan Hüquqları üzrə Müvəkkil Səbinə Əliyeva bildirib ki, respublikada ermənilərin hüquqları ölkənin digər vətəndaşlarının hüquqları kimi qorunacaq. "Hər bir ölkə vətəndaşı kimi Qarabağda yaşayan erməni əsilli vətəndaşlar da hüquq və azadlıqlarının təmini ilə bağlı hər hansı problem yarandıqda, 24 saat fəaliyyət göstərən "916" zəng mərkəzinə zəng edərək Ombudsmanla əlaqə saxlaya bilərlər", - deyə Əliyeva əmin edib.

Bu arada Ermənistan hakimiyyəti Azərbaycana qarşı Beynəlxalq Ədalət Məhkəməsində iddia qaldırıb. İrəvan hesab edir ki, guya Bakı Qarabağdakı erməni əhaliyə qarşı irqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Beynəlxalq Konvensiyanı pozub. Eyni zamanda, o, bir tərəfdən azərbaycanlıların erməniləri birbaşa və ya dolayısı ilə öz ərazilərindən sıxışdırıb çıxarmağa son qoymasını, digər tərəfdən isə bölgəni tərk etmək istəyən hər kəsə mane olmamasını istəyir. Ermənistan hakimiyyəti də Azərbaycanın Qarabağın indiki və keçmiş siyasi və hərbi nümayəndələrinə qarşı tədbirlərdən çəkinməsini istəyir. Bundan əlavə, İrəvan Bakıdan "təhlükəsizlik qüvvələrini bölgədəki mülki obyektlərin ərazisindən çıxarmağı və erməni irsinə, o cümlədən Osmanlı dövründə erməni soyqırımı qurbanlarının xatirə abidələrinə qəsd etməməyi" tələb edir. Çox absurd iddiadır, əvvəla Azərbaycan ordusunun hərbi hissələri heç bir mülki binalarda yerləşdirilməyib, ikincisi və ən əsası, Osmanlı dövründə baş verməmiş və Azərbaycan tərəfindən də "qondarma" damğası vurulmuş bir hadisəyə aidiyyəti olduğu bildirilən "abidə"nin torpaqlarımızda mövcudluğuna göz yummağı bizdən tələb etmək heç bir məntiqə sığmır.

İrəvan iddia edir ki, guya Qarabağda heç bir erməni qalmayıb. "Oktyabrın 1-də səhər saatlarında 100 min 483 nəfər Qarabağı tərk edib". Bakıda isə bunu cəfəngiyyat adlandırır və bunun texniki cəhətdən də mümkünsüz olduğunu bildirirlər. Qısa müddət ərzində 100 min nəfərin, həm də öz avtomobilləri ilə dağ yollarından keçməklə, üstəlik də sərhəd keçid məntəqəsindən istifadə etməklə Ermənistana getmələri qeyri-mümkündür, növbəti erməni yalanıdır. Bəs onda, Ermənistan hakimiyyətini nə vadar edir ki, Qarabağdan könüllü şəkildə gedənlərin sayını bu qədər şişirtsin? Kiçik araşdırma kifayət edir ki, bunun səbəbini öyrənəsən. Əvvəla, bu "fakt" vasitəsilə Azərbaycanı cavabdehliyə cəlb etmək, ikincisi beynəlxalq donor təşkilatlarından, ayrı-ayrı ölkələrdən köçkünlərin ehtiyacını ödəmək üçün yardımların həcmini artırmaq, bol para toplamaq.

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Ermənistanın iddiasını tamamilə əsassız və absurd adlandırıb. O, xüsusilə qeyd edib ki, İrəvanın tələbi Beynəlxalq Məhkəmənin sözügedən iş üzrə



əvvəlki qərarlarına məhəl qoymur və azərbaycanlılara qarşı irqi nifrətin qızışdırılması və təbliğinə yönəlib. Hacızadə iddianı Ermənistanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qəsd cəhdlərindən əl çəkmədiyinin sübutu kimi qiymətləndirib. Bununla belə, Azərbaycan Prezidenti İlham Əliyev hələ də Ermənistanla sülhün mümkünlüyünü rədd etmir.

*Ardı Səh. 6*

Əvvəli Səh. 5

Onun sözlərinə görə, bu, İrəvandan baş nazir Nikol Paşinyanın 2019-cu ildə verdiyi "Qarabağ Ermənistandır" bəyanatından sonra baş vermiş hadisələri düzgün təhlil etməyi tələb edir. "Biz Cənubi Qafqazın gələcəyini, bütün regionun gələcəyini belə görürük. Düşünürəm ki, qonşularımız və beynəlxalq aktorlar bizim tərəfimizdən yalnız konstruktiv yanaşma görəcəklər", - deyə İlham Əliyev yekunlaşdırıb.

Erməni politoloq Arşaluys Mqdesyan bildirib ki, beynəlxalq təşkilatlara indiki müraciət İrəvana heç bir maddi fayda gətirməyəcək, çünki əvvəlki cəhdlər nəticə verməyib. "Məsələn, əvvəllər Bakı BMT məhkəməsinin, Rusiya, ABŞ və Avropa İttifaqının Laçın yolunun qarşısının alınması ilə bağlı çağırışına məhəl qoymadı. İndi nəyinsə dəyişəcəyi ehtimalı yoxdur. Çox güman ki, bu yolla Ermənistan Azərbaycanın Qarabağdakı cinayətləri ilə bağlı dosye hazırlayır ki, məhkəməyə müraciət etsin", - ekspert hesab edir. Qarabağdakı beynəlxalq missiyaya gəlincə, Mqdesyanın sözlərinə görə, bu, regionda çox gec peyda olub: "Azərbaycan praktiki olaraq Qarabağın öz strukturuna inteqrasiyasına başlayıb".

Bu arada azərbaycanlı politoloq İlqar Vəlizadə bildirib ki, Bakı 30 ildir ki, BMT missiyasının Qarabağa səfərini reallaşdıra bilməyib, çünki bunun üçün heç bir siyasi şərait yox idi. "İndi Azərbaycan tərəfi qərarlar verir, amma vaxtilə bölgə separatçıların nəzarətində olub. Ümid edirəm ki, BMT missiyası Bakının etnik təmizləmə aparmadığını və ermənilərin Qarabağı könüllü şəkildə tərk etdiyini təsdiq edəcək". Vəlizadə eyni zamanda bildirib ki, indiki hadisələr yüz minlərlə azərbaycanlının Qarabağı tərk etdiyi 1990-cı illərin əvvəllərində baş verənlərlə müqayisə oluna bilməz. "O zaman nə dəhliz, nə sülhməramlılar, nə də beynəlxalq təşkilatlar var idi. İnsanlar irəliləyən ordudan qaçdılar. Bu mənada Bakının İrəvandan daha çox arqumentləri var", - ekspert vurğulayıb.

Azərbaycan hakimiyyəti Qarabağa investisiya qoymağa hazırlaşır. Çin şirkətləri Azərbaycanın əvvəllər elektrik enerjisi olmayan iqtisadi rayonuna elektrik yarımstansiyaları verməyə hazırdırlar. 1992-1994-cü illərdə baş vermiş münaqişə zamanı Qarabağı tərk etmiş bir milyon azərbaycanlı qaçqınöz yurduna, evinə qayıtmağı planlaşdırır. Bakı bildirir ki, regionun reinteqrasiyası uğurla davam edir. BMT-nin oraya gələn missiyası hələlik heç bir nəticə çıxarmayıb. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ermənistandakı nümayəndəsi Kavita Belani isə bildirib ki, bu ərazini tərk edən erməni sakinlərə qarşı zorakılıq faktı aşkar edilməyib.

Azərbaycan Qarabağda konstitusiya quruluşunun bərpası tədbirlərini başa vurduqdan 5 gün sonra Prezident İlham Əliyev Naxçıvanda Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşüb. İlham Əliyev qeyd edib: "Artıq Azərbaycandan Qarabağ bölgəsinə orada yaşayan erməni əhaliyə humanitar yardımın çatdırılmasına başlanılıb. Yanacaq, o cümlədən dizel yanacağı, benzin, ərzaq,



# Qranada sammiti: qədər və sonra

dərman və digər humanitar yardımlar verilir. Bu bir daha onu göstərir ki, Qarabağ bölgəsində yaşayan insanlar milliyyətindən asılı olmayaraq Azərbaycan vətəndaşıdır. Bu insanların təhlükəsizliyi və hüquqları Azərbaycan dövləti tərəfindən təmin olunacaq".

Prezident Qarabağda yaşayan erməni əhalinin Azərbaycan cəmiyyətinə inteqrasiyası prosesinin uğurla davam edəcəyinə əminliyini ifadə edib. Lakin separatçıların rəhbəri qondarma qurumun ləğvi haqqında "fərman" imzalayandan sonra erməniləri Qarabağdan tələsik köçməyə məcbur ediblər. Bundan xeyli əvvəl isə Azərbaycan Prezidenti azərbaycanlı qaçqınların Qarabağa qayıdışının başlandığını elan edib: "Artıq 2 mindən çox insan bölgəyə köçüb. Ümumilikdə 30 il ərzində 1 milyona yaxın azərbaycanlı Qarabağı tərk edib. İndi öz doğma yurdlarına qayıtmaq üçün səbirsizliklə gözləyirlər. İnsanlar Bakıdan, ölkənin ikinci böyük şəhəri Sumqayıtdan, Gəncədən gəlirlər. Onlar şəhərlərdən kəndlərə gəlirlər".




Azərbaycan Prezidenti söz verib ki, hakimiyyət Qarabağa qayıdan vətəndaşlara təşkilati və maddi köməklik göstərəcək. İlham Əliyev həmçinin əminliklə qeyd edib ki, əgər Ermənistan hökuməti 2019-cu ildə Ermənistanın baş nazirinin "Qarabağ Ermənistandır" kimi təxribat xarakterli bəyanatından sonra baş vermiş hadisələri düzgün təhlil edərsə və bundan nəticə çıxararsa sülhü də uzaqda axtarmaq lazım gəlməz. Əlbəttə, Azərbaycan Cənubi Qafqazın gələcəyini, bütün regionun gələcəyini belə görür. Qonşularımız və beynəlxalq aktyorlar bizim tərəfimizdən yalnız konstruktiv yanaşma görəcəklər.

İlham Əliyev İspaniyanın Qranada şəhərində Ermənistanın baş naziri Nikol Paşinyanla görüşü ərəfəsində xatırladıb ki, bu il sentyabrın 20-də biz öz suverenliyimizi tam olaraq bərpa etdik. Beləliklə, bizim torpağımızda artıq nə boz zona, nə qanunsuz obyekt, nə də separatizm var. Hesab edirəm ki, bu güclü siyasi iradənin, Azərbaycan xalqının birliyinin nümayişi, eləcə də Azərbaycan hökumətinin Ermənistanla sülhə hazır olması hələ də revanşist ideyalarla yaşayan bütün insanlar üçün siqnaldır. Bütün bunlardan əl çəkməlidirlər.

Bu arada isə məlum olub ki, Ermənistan tərəfi Avropanın 20-dən artıq şəhərlərində, o cümlədən Brüsseldə, Londonda, Roma, Vyana, Stokholm, eləcə də Qranadada "Qarabağa dəstək" aksiyaları keçiriləcək. Halbuki, hər iki ölkə ictimaiyyətinin böyük hissəsi müharibədən çox sülhə üstünlük verir və Qranadada tərəflərin sülh üqavilesi ətrafında danışıqlar aparacaqlarını düşünürlər. Aksiyalar isə sülhü inkar deməkdir, həqiqəti danmaq, reallıqla barışmamaqdır. Bu isə məğlub Ermənistan üçün heç bir gələcək vəd etmir.



**V.VƏLİYEV**

# Avropasayağı: bir və ya iki uşaq

## HƏYƏCAN TƏBİLİ

**Avropaya doğru çıxdığımız yolçuluqda arxada qoyub üzərindən irəliyə addımladığımız məsələlərdən biri də dünyaya gələn uşaqların hər il sayının azalmasıdır. Bu say o qədər azalıb ki, indi üçuşaqlı ailələr barmaqla göstəriləcək qədər qalıb. Müasir ailələrimizdə iki uşaq, son vaxtlar isə bir uşaqla kifayətlənmək bizim hələ bir neçə illər öncəki avropalaşmaq meylimizin bəhrəsidir. Hansı ki, artıq budur, meyvəsini dəririk.**

Tanıdığım yaşlı bir qadın var, mama-tibb bacısıdır. O deyir ki, ailədə iki uşaqla kifayətlənmək tamamilə səhv fikirdir. Həmin ailə fikirləşməsin ki, biz dünyaya insan bəxş etdik. İki uşaqdan biri ata, biri anadır. Əgər ailədə üçüncü uşaq varsa, bu, artım sayıla bilər.

Nə qədər doğru söylənmiş fikirdir. Dəfələrlə təsadüf etmişik ki, ailələrdə iki övladdan biri ya xəstəlikdən, ya da hansısa qəza nəticəsində dünyasını dəyişir, o biri uşaq tək qalır, bundan böyük travma alır. Bu, həm də uşaqların psixoloji durumuna ciddi təsir göstərir. Qardaş və ya bacısını itirən uşaq əgər ailədə üçüncü uşaq olarsa, onunla təsəlli tapar, əks təqdirdə onun vəziyyətini düşünmək heç də çətin deyil. Belə uşaqlar üçün gələcək həyat daha dözülməz olur. Çünki onlar tamamilə tək qalırlar.



### Qadınlar günahkardır...





İki övladından birinin oğlan olması ilə kişi artıq ailə üzvlərinin daha da artmasında maraqlı olmur. Çünki onun artıq oğlu var. Hər bir kişinin arzusunda olduğu, doğulmasını səbrsizliklə gözlədiyi oğlu. Elə ki, birinci və ya ikinci uşaq oğlan oldu, deməli, kişilər arzularına çatdılar. Onlar daha ailə artımı barədə düşünmürlər.

Məsələnin bu tərəfi üçün məhz qadınlar günahkardır. Çünki qadın həm də anadır. Övladının bu gününü və gələcəyini düşünmək kişilərdən çox qadınlara bəxş olunan hissdir. Bu səbəbdən də qadınlar iki uşaqla kifayətlənməməlidir. Lakin onlar işlərinin yüngül olması, karyera dalınca gedə bilmələri, daha çox əziyyət çəkməmələri üçün USM-lərin köməkliyi ilə ailə planlaşdırması tərtib edərək bu kimi problemlərin yaranmasına rəvac verirlər. O problemlər ki, əhali sayının da, ailədə uşaq sayının da artımına və bunun yaratdığı problemlərə ciddi şəkildə təsir göstərir. Əslində isə dünyaya uşaq gətirmək, onun qayğısına qalmaq, gözəl tərbiyə verib böyütmək valideynlərin, xüsusilə də anaların üzərinə düşən mühüm vəzifədir. Digər işlər, karyeralar isə bundan sonra düşünülməlidir.

Axı biz ailə dəyərlərimizə bu cür münasibət bəsləyə-bəsləyə onu cılızlaşdırırıq. Ailəyə iki övlad bəxş etməklə ölkəmizin əhali sayına, inkişafına zərbə vurmuş oluruq. Mənsub olduğumuz kökün, nəslin getdikcə azalmasına, yoxa çıxmasına şərait yaradırıq...

### Bacısız qardaşlar, qardaşsız bacılar və ya əmi-dayısız, bibi-xalasız uşaqlar

Beləliklə, cəmiyyətimizə yeni ailə modelləri təqdim edirik. Azuşaqlı, azüzvlü, qohumsuz ailə modelləri. Hazırda yüzlərlə ailə var ki, onlar bir uşağa sahibdirlər. İkincisi barədə isə əsla düşünmürlər. Bu isə yüzlərlə qardaşsız bacı, bacısız qardaş deməkdir. Tək böyüyən, ata-ana dünyasını dəyişəndən sonra tamamilə təkləşən uşaqlar deməkdir. Gələcəkdə övladının bu təkliklə necə yaşayacağını valideynlər bu gün düşünürlərmi? Düşünsələr, yəqin ki, övladları üçün məlum gələcəyi verməzlər.



Və yaxud da ailə iki uşaqla kifayətlənirsə, əmi-dayısız, xala-bibisiz bir cəmiyyət formalaşdırırıq. Son onilliklərin ailə modeli olan ikiuşaqlı ailələrdə bir qız, bir oğlan doğulur. Minlərlə belə ailələr var. USM-lərin köməyi ilə bir qızı övladı olan ailələr ikinci uşağı oğlan istəyir və buna selektiv abortların köməyi ilə nail olurlar. Beləliklə də onların həm qızı, həm oğlu olur. Bu uşaqlar isə gələcəkdə yalnız dayı və bibi olurlar. Əmi və xala qohumluğu isə artıq sona çatmaqdadır. Biz özümüz öz əllərimizlə əmisiz və xalasız cəmiyyət qururuq. Hansı ki, bizdə xalaya ikinci ana, əmiyə ikinci ata deyirlər. Yeri gələndə həyatın sərt üzü ilə qarşılaşanda xala bacısının övladlarına analıq, əmi isə qardaşının övladlarına atalıq edə bilir. Yalnız iki uşaqla həm də onlardan birinin qız, digərinin isə oğlan olması ilə kifayətlənməklə bu kimi "yeniliklərə" rəvac veririk.

### Məsələnin əsas tərəfi də var...

Bəli, bu məsələnin əsas tərəfi haqqında danışmamaq olmur. Ailələrdə iki uşağın olduğu məlumdur. Bəs sual edən varmı ki, nə üçün bir qız, bir oğlan? Belə ailələrin əksəriyyətində ilk uşaq qızdır. Məhz qız olduğu üçün də valideynlər oğlan axtarışına çıxır. Nə etməli ki, ikinci uşaq hökmən oğlan olmalıdır. Beləliklə yeni bir proses başlayır. Analar növbəti hamiləlikləri o vaxta qədər pozur ki, USM ona oğlun olacaq deyir. Beləliklə də birinci uşaqla ikinci arasında 2-3, bəzən də bundan da çox qız uşağını qurban veririk. Onlar selektiv abortların qurbanına çevrilir.

Yox, əgər ailədə ilk uşaq oğlandırsa, müasir valideynlər bəlkə də bununla kifayətlənərlər. Lakin ata-analarının təkidi ilə, "bir uşaqla olmaz" tələbi, umu-küsüsü ilə bir neçə ildən sonra ikinci uşağın doğulmasını planlaşdırırlar. Bu dəfə isə fərq etməz, qız, ya oğlan olsun. Çünki istənilən əsas övlad-oğlan artıq onlarda var.

Beləliklə, bu qənaətə gəlmək olar ki, cəmiyyətimiz ciddi bir xəstəliyə düçar olub. Yaxşı həkimlər lazımdır ki, bu səhv psixoloji vəziyyətdən bizi çıxara bilsin. Ailənin, övladların dəyərini bizə anlada bilsin. Uşaqların çoxsaylı olmasının onların gələcəkdə bir-birinə dəstək, arxa-dayaq olmasını anlada bilsin.

Bizə yaxşı ağsaqqal və ağbirçəklər lazımdır ki, əvvəlki illərdən söhbət açsın. Çoxuşaqlı ailələrdən, çoxsaylı bacı-qardaşlardan danışsın. Belə ailələrdə yaşanan maraqlı anları, xoşbəxtliyi anlatsın. Toy-ziyafətlərdə əmi-dayı, bibi-xala uşaqlarının gəlinin, bəyin əhatəsində yaratdığı xoş xatirələri xatırlatsın. Onların bir-birilərinə arxa-dayaq, dost-rəfiqə olmasından, bununla da bütövlükdə həyatlarının maraqlı keçməsindən söhbət açsın. Hansı ki, biz uşaqlarımızı bu xoşbəxtlikdən məhrum edənlərik.

Nə oldu bizlərə, nə üçün bu qədər dəyişdik? Nə üçün nənə-babalarımızın ardınca deyil, Avropanın ardınca getməyə üstünlük verdik? Nə üçün özümüzün neçə-neçə əmi-dayımız, xala-bibimiz ola-ola övladlarımızı bu qohumlardan məhrum edirik? Bu haqqı bizə kim verir? Avropamı? Axı əsrlərin o üzündən bəri onlarla bizim bütün dəyərlərimiz fərqli olub. Onlar ailə dəyərlərinə görə həmişə bizə köks ötürüblər. Bizi nümunə göstəriblər. Çoxuşaqlı ailələr onlar üçün bir möcüzə qaynağı olub. Biz nə edirik? Bir vaxtlar bizə oxşamağa çalışanlara indi biz oxşayırıq?..

### Nə qədər ki, selektiv abortlar var...

2022-ci ildə Azərbaycanda 122846 körpə doğulub. Onlardan 64940 nəfəri oğlan, 57906 nəfəri isə qız uşaqlarıdır. Göründüyü kimi ötən ildə də son illərin hər birində olduğu kimi, oğlan uşaqları qızlardan çox doğulub.

2021-ci ilin statistikasına əsasən, Azərbaycanda 100 qıza 115 oğlan düşür. Əvvəl selektiv aborta görə siyahıda liderlik Çinə məxsus idi və Azərbaycan ikinci yerdə idi. İndi vəziyyət əksinədir. Belə ki, hazırda Çində bu göstərici 100-110,3 təşkil edir. Nəzərə almaq lazımdır ki, dünyaya gələn uşaqların cins nisbəti bioloji normaya uyğun olaraq 102-106-dır. Belə ki, heç bir xarici müdaxilə olmadığı təqdirdə doğulan hər 100 nəfər qız uşağına 102-106 oğlan uşağı düşür. 1990-cı illərin əvvəllərindən Azərbaycanda bu nisbətin pozulması müşahidə edilir.

BMT-nin Əhali Fondunun hesablamalarına görə, Azərbaycanda doğulan uşaqlar arasında cinsə görə nisbətin ciddi şəkildə pozulması davam etsə, 2050-ci ilə qədər hər il doğulan oğlan uşaqlarının sayı qız uşaqlarının sayından 12 000-15 000 nəfər çox olacaq.

Ekspertlər bu fikirdədir ki, cəmiyyətdə kişilərin sayının bu artımla davam etməsi ölkənin acınacaqlı nəticələrlə üzüzə qalması halına gətirib çıxara bilər. Bura Gender bərabərsizliyi, zorakılıq, erkən nikah, insan alveri və kriminal səviyyənin artması aiddir.

Bu vəziyyətlə qarşılaşmaq istəmiriksə...

### Selektiv abortlar qadağan olunmalıdır

Selektiv abortlar insanlığa qarşı haqsızlıq, təhqirdir. Qadınla kişi arasında bərabərliyə zidd, ən təhlükəli vasitədir. Hansı ki, biz Gender bərabərliyindən danışırıq, lakin bu bərabərliyi pozan birinci amil selektiv abortlardır.

Selektiv abortların çoxalmasında, dünyada ölkəmizi birinci etməsində, oğlan və qız balansının pozulmasında, bunun gələcəkdə böyük problemlərə səbəb olmasında hər birimiz günahkarıq. Biz illər öncədən bu xalqa məxsus milli adət-ənənələrdən yola çıxmalıydıq. Bu yolda insanlığa balta çalan bu yeniliyi baltalamalı, onun inkişafının, yayılmasının qarşısını almalıydıq.

Bu gün son illərin statistikasına nəzər salanda bütün illərdə doğulan uşaqlar arasında oğlanların qızlardan artıq olmasını müşahidə edirik. Bunun yaratdığı problemlər isə artıq hiss olunmaqdadır. Yaxın gələcəkdə isə bu problemin ağırlığı çiyinlərimizi yara edəcək.

Bu gün Azərbaycanın selektiv abortlara görə dünyada birinci yerdə olması artıq səhiyyə sistemində həyacan təbili çalınmasının vaxtının ötdüyünü göstərir. Selektiv abortlar indiyədək niyə qadağan olunmayıb? Görəsən bunun qarşısını nə kəsib? Çünki kiminsə haqqı deyil dünyaya gətirəcəyi uşağın cinsini əvvəlcədən bilsin. Heç kimin də bunu bilməməklə hüququ pozulmur. Bəs belə isə bu növ abort nə üçün qadağan olunmur?

Oğlanların sayı artır, qızların sayı dəfələrlə azalır. Biz gələcəkdə ana olacaq qız tapa bilməyəcəyik. Bir əmili, xalalı uşaq görməyəcəyik. Ən dəhşətlisi isə bacısız və qardaşsız bir cəmiyyətə doğru gedirik. Bu barədə düşünmək hələ də gec deyil...

***Mətanət Məmmədova***

# Bilik xəzinəsini milyonlara bəxş edən varlıq

Bu gün 5 oktyabr dünya ictimaiyyətinin məhəbbətlə qarşıladığı və daim qəlbində gəzdirdiyi müəllimlərin peşə bayramı - Beynəlxalq Müəllimlər Günüdür. 5 oktyabr tarixinin qeyd edilməsinə dair qərar ilk dəfə 1966-cı il oktyabrın 5-də YUNESKO tərəfindən verilib. Təşkilat tərəfindən müəllimlərin statusunun artırılması ilə bağlı tövsiyə xarakterli sənəd qəbul edilib. İndi dünyanın 100-dən çox ölkəsində oktyabrın 5-də müəllimlər peşə bayramlarını qeyd edirlər. Bu bayramın beynəlxalq səviyyədə keçirilməsi, həqiqətən də, böyük sevginin bəşəri təcəssümünü özündə ehtiva edir. Ağıl və elm kimi dünyaya məxsus olan açarın milyonlarla insanlara əxzində, məhz müəllim qüdrəti, müəllim əməyi əvəzsiz və sonsuzdur. Odur ki, bəşəriyyət formalaşdığı bir zamandan müəllimə olan münasibət fərqli məcrada özünü göstərə bilmişdir. Müəllim ustaddır, öyrədəndir, həyata vəsiqə verəndir. Bu cür məfhumları özündə cəmləşdirən peşə sahibinin peşə bayramının respublika səviyyəsində qeyd olunması ona olan qiymətin bir ölçüsüdür. Dünyanın bütün peşə sahiblərini həyata hazırlayan elə müəllimdir. Bu baxımdan, müəllimlik peşəsi heç bir peşə ilə müqayisəyə gəlməyən bir nümunədir. Dünyanın ən müdrik simaları, liderləri, böyük şəxsiyyətləri, beynəlxalq aləmin hegemon qüvvələri bu ad qarşısında adiləşir, öyrənməyə və nəyisə əxz etməyə çalışırlar. ”Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram”. - deyən Ümummilli Lider Heydər Əliyev, Azərbaycana rəhbərlik etdiyi bütün illərdə, müəllim əməyini yüksək qiymətləndirib, onlara böyük hörmətlə yanaşıb, təhsil işçilərinin maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılmasının qayğısına qalıb.




***“Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var”***

Ulu Öndər Heydər Əliyev



## MÜƏLLİM ADININ VƏ ŞƏRƏFİNİN UCA TUTULACAĞINA İÇİLƏN AND

Körpə könüllərdə məşəl yandıran, onu sabahın qurucusu və yaradıcısına çevirən müəllimdir. Bu cür bir peşənin sahibi olan insanın qəlbində yanan işığın şöləsi ətrafa yayıldıqca onun nurunun fövqündə bu dünya böyük bir insanlığa xidmət edir. Ali dəyərlərə, bəşəri dəyərlərə, sülhə, əmin-amanlığa, gözəl zəkaya, xeyirxahlığa, ədalətə, birliyə, ziyalılığa və şəxsiyyətə. Bir sözlə, arzuladığımız bir cəmiyyətə. Toxum kimi səpdikləri boy atdıqca Vətən nurlanır, inkişaf edir. Suvardığı torpaqdan boy verənlər Vətən sərhədinə bir çəpər olur. Belə bir müqəddəs peşə sahibinə ən gözəl fikirlərimizi ünvanlasaq, yenə də azdır. ”Hələ yazılmamış, hələ qırışsız, hamar beyinləri cilalandıran” müəllimdir! Tez durub gec yatan, bu gün sabahımızı yaradan müəllim.

”Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına riayət edərək Azərbaycan təhsilinin ənənələrinə sadiq qalacağıma, keyfiyyətli təhsil xidməti göstərəcəyimə, peşəkar fəaliyyət zamanı qeyri-etik davranışın hər hansı bir formasına yol verməyəcəyimə, həmkarlarım, təhsilalanlar, valideynlər və digər şəxslərlə münasibətləri hörmət, şərəf və ləyaqət əsasında quracağıma, müəllim adını və şərəfini uca tutacağıma and içirəm.” Bu Azərbaycan müəlliminin təntənəli şəkildə Azərbaycan Respublikasının Dövlət bayrağı altında Azərbaycan Respublikasının Konstitusiyasına əl basmaqla içdiyi anddır. O and ki, gələcək illərində onu hər an məsuliyyətli olmağa, istənilən bir hərəkətinə cabavdeh olmağa səsləyir. Azərbaycana layiqli, vətənpərvər, savadlı gənclərin yetişməsində müəllimin payı müstənsandır. Bu gün müəllim andı içən hər kəs müstəqil bir dövlətin tələblərinə cavab verən nəsil yetişdirir və onları cəmiyyətə layiqli vətəndaş kimi yetirir. Bu gün 44 günlük Vətən müharibəsində şəhid olan, qazi olan, ümumilikdə iştirakçı olan hər kəs on bir il parta arxasında müəllimlərdən dərs almış, Azərbaycan tarixini öyrənmişdilər. Hər il bir sinifdən o biri sinfə adlayan şagirdlər 20 Yanvar facəsini, Xocalı soyqırımını, Birinci Qarabağ savaşını dərindən öyrənərək nə vaxtsa torpaqlarımızın işğaldan azad olunmasında iştirakçı olacaqlarına əmin idilər. Əli silahlı səngərdə düşmənə dərs verəcəkdilər. Gün gəldi, zaman yetişdi

Müəllimlərindən aldığı vətənpərvərlik dərsini döyüş meydanında göstərdilər. Düşmənə dərs verən Azərbaycan ordusunun sıralarında döyüşkən ruhlu, vətəni qorumaq qüdrətində olan biləcək gənci kimi.

*Məktəbi hər şeydən üstün millətin*
*Hər yerdə, hər işdə zəfəri-haqdır.*

Xatırladaq ki, Vətən müharibəsi başlayanda Vətən, deyib cəbhəyə yol düşən müəllimlərimiz də az olmadı. Bu gün müəllimlər günündə onların adını vurğulamaq, əlbəttə ki, borcumuzdur. Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda qəhrəmanlıq göstərərək şəhid olan müəllimlərimiz Vüqar Vəliyev, Famil Əhmədzadə, Rəşad Məmmədov, Elvin İmaməliyev, Etiram Hüseynli, Qoşqar Ömərov, Vidadi İsrafilov, Elxan Rzayev, Xalid Nəciyev, Elgün Quliyev, Tural Rəhimov, Rəvan Lətifov, Əvdil Quliyev, Rabil İsmayılov, Emil Qurbanov və Kənan Müzəfferli. Bu adlar əbədi olaraq tariximizə yazılıb. Vaxtilə parta arxasında dərs alan bu müəllimlər zaman yetişir ki, milli ruhlu, gələcəyin vətənpərvər ruhlu övladlarını yetişdirir və tale elə gətirir ki, cəbhədə döyüşçü kimi bir meydanda vuruşurlar. Bu o müəllimlərdir ki, həm müəllim kimi vətənə layiq övladlar yetişdirib, həm də zamanı yetişəndə silaha sarılıb. Vətəndaş müəllim! Qarşınızda baş əyirik!!!

Zəfər tarixin yaşayan məktəbli bu tariximizdən gələcək nəsillərə söz açanlardan olacaqlar. Ona görə də onlara parta arxasında ikən böyük, ali sevgi ilə yoğrulmuş şəhiidlərimizi keçdiyi yol, qəhrəmanlıq səhifələrinin əsas məqamları aşılanır. öyrənilir. Bəli, bu gün biz belə müəllimlərimizlə fəxr edirik. Vətən eşqi ilə yanan və yaşayan. Bu eşqi yüzlərlə, minlərlə şagirdlərinə əxz edən müəllimlər. Adınız şərəflidir. İlk dərs gününü ”Ümumilli Lider Heydər Əliyev Azərbaycanın xilaskarı və qurucusudur” mövzusu ilə başlayan



Azərbaycan müəllimi üçün bundan böyük qürurverici nə ola bilər? Ulu Öndər Heydər Əliyev ideyaları yaşayırvə öyrənilir, təbliğ olunur. Bu gün yetişən məktəblilər şəxsiyyət olaraq formalaşır.

## DÖVLƏTİN GÜCLÜ SİLAHI ELMİ İNKİŞAFIDIR

Hər yerdə olduğu kimi, Azərbaycanda da müəllimə qarşı böyük bir imic formalaşıb, hər kəs onun şəxsiyyətinə və böyüklüyünə hörmətlə yanaşır. Dünyanın dərk edilməsi elmdə olduğundan, müəllimə bütün zamanlarda ehtiyac duyulur. Həyatı, yazıb-yaratmağı öyrədən müəlliminə mənən borclu olduğuğunu dərk edərək, onun vücudu qarşısında səcdə edir. Bir müəllimin gücü bir ordu ilə müqayisə oluna bilər. Hər fərdin cəmiyyətdə formalaşması müəllim əməyi, təxəyyülü, zəhməti və illəri hesabına başa gəlir. Cəmiyyətə savadlı, elmi bilikli gənclər ordusunu yetişdirən müəllim onu şəxsiyyət və vətəndaş olaraq cəmiyyətə hazırlayır. Elm və savadla bahəm, bu dəyərlərin aşılanması əsas şərt olduğundan, hər bir müəllim ünsiyyətdə olduğu şagirdlərinə bu keyfiyyətləri aşılamaq üçün öz peşəkarlığını ortaya qoyur. Müəllim pedaqoq və psixoloqdur. Müəllim özünü tərbiyə edib, özündə kamil insani sifətləri aşılayıbsa, demək, müəllim adı ona yaraşır. Özünə aşıladığı bu sifətləri mütləq cəmiyyətə də aşılayacaq. Belə bir cəmiyyətdə missiya daşıyıcısı olan müəllimə yetirilən diqqət də yetərincədir.

Bu gün sivil ölkələr sırasında Azərbaycanı nüfuzlu dövlət kimi görürüksə, demək, dövlətin güclü silahı olan elmi inkişafdadır. Ölkə rəhbərliyi tərəfindən atılan addımlar bu sahənin daha da inkişafına yönəlmişdir. İyirmi birinci yüzillik elm və informasiya əsri olduğundan, sürətli inkişafda Azərbaycan da təhsilini dünya səviyyəsində qurur. Təhsilin inkişafına göstərilən yüksək diqqət Azərbaycanın dünya miqyasında tanıdılmasına və layiqli yerinin təmin olunmasına xidmət edir. Təhsil sistemində əldə olunan yeniliklər Azərbaycan elminin dünyaya inteqrasiya sürətini artırıb.

Dövlət başçısı İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi illər ərzində, təhsilin inkişafı ilə bağlı qarşıya qoyulmuş hədəflər uğurla yerinə yetirilib. Qəbul olunmuş dövlət proqramları, layihələr, aparılan islahatlar təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsində mühüm rol oynayır. Belə ki, məktəblərdə əsaslı təmir-tikinti işlərinin aparılması, müasir tipli yeni təhsil ocaqlarının tikilib istifadəyə verilməsi regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarında öz əksini tapıb. Eyni zamanda, ”Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin avadanlıqlarla təmin olunmasına dair İnkişaf Proqramı” bu sahədə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini təmin edib. Dövlət başçısının yüksək diqqəti və effektiv göstərişləri əsasında atılan addımlar, icra edilən dövlət proqramları təhsil sistemində keyfiyyətcə yeni inkişaf meyillərinin əldə edilməsinə və yüksək nəticələrin qazanılmasına xidmət edir.

Azərbaycanda təhsilə verilən qiymət və diqqət, artıq təhsilin keyfiyyətcə yeniləşməsinə gətirib çıxarıb. Prezident İlham Əliyevin dediyi kimi, ”Azərbaycanda təhsil sisteminin təkmilləşməsinə çox böyük diqqət göstərilir. Təhsil bizim gələcəyimizdir”. Dünyada mövcud olan ən qabaqcıl təcrübə Azərbaycanda tətbiq edilir. Buna görə də, məsuliyyət hissi ilə cəmiyyətə layiqli vətəndaşlar yetişdirilməlidir. Müəllim hər bir yeniliyi izləyərək, onu tətbiq etməlidir. Müəllim savadı və dünyagörüşü ilə böyük bir nəsli tərbiyə edir. Bütün dünyada gedən prosesləri izləyir və ölkəmiz üçün vacib olan məsələləri şagirdlərə çatdırır. Bu günün məktəblisi, gələcəyin əsgəri və vətəndaşıdır. Bu prizmadan çıxış edərək, yüksək bilikli şagird yetişdirməklə, müəllim cəmiyyətə sağlam ruhlu vətəndaş hazırlamalıdır. Təməli məktəb partaları arxasında qoyulan şagirdlər, məhz bu gün müəllimin böyük zəhməti sayəsində inkişaf edir. Xalqımızın milli təfəkküründə müəllim adı hər zaman ucalıq, ziyalılıq və mənəvi saflıq rəmzi kimi təcəssüm olunur, böyük hörmətlə və yüksək ehtiramla çəkilir.

Müəllimlər gününüz mübarək, ƏZİZ MÜƏLLİMLƏR!

***Nəzakət ƏLƏDDİNQIZI***

# YAP Füzuli rayon təşkilatının yeni təyin olunmuş sədri ictimaiyyətə təqdim edilib

**Yeni Azərbaycan Partiyasının (YAP) Füzuli rayon təşkilatının yeni təyin olunmuş sədri Nazimə Şamıyeva oktyabrın 4-də ictimaiyyətə təqdim edilib. Füzulidə keçirilən təqdimat mərasimindən əvvəl tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin rayon mərkəzində yerləşən abidəsini ziyarət edib, abidənin önünə tər güllər düzərək əziz xatirəsini dərin ehtiramla yad ediblər.**






Tədbirdə çıxış edən Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev bildirib ki, Yeni Azərbaycan Partiyasının yaranması tarixi zərurət, o dövrdə cərəyan edən hadisələrin yekunu və mövcud ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi: "YAP zəngin və şərəfli inkişaf yolu keçib. Bu gün Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası yeni-yeni nailiyyətlərə imza atır".

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Elmar Məmmədov partiyanın VII qurultayından ötən dövr ərzində həyata keçirilən işlər barədə məlumat verib. Sonra partiyanın Füzuli rayon təşkilatının sədri Nazimə Şamıyeva ictimaiyyətə təqdim edilib və onun fəaliyyəti haqqında ətraflı məlumat verilib.

Nazimə Şamıyeva göstərilən etimada görə təşəkkürünü bildirərək üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışacağını bildirib.

Partiya fəalı Almaz Həşimova Yeni Azərbaycan Partiyasının uğurlu gələcəyinin onun yaradılmasının ilk illərindən göründüyünü qeyd edib. O bildirib ki, Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə böyük uğurlar qazanmaqdadır.

Tədbirdə rayon Təhsil sektorunun müdiri Ramella Məmmədova, Ağsaqqallar Şurasının sədri Zülfüqar Əliyev və Gənclər Evinin direktoru Seyfəddin Maqsudov çıxış edərək Yeni Azərbaycan Partiyasının ölkəmizə möhtəşəm uğurlar qazandırdığını diqqətə çatdırıblar. Çıxış edənlər YAP Füzuli rayon təşkilatının sədrini təbrik edərək məsuliyyətli və şərəfli işində uğurlar arzulayıblar.

# Osmanlı elm və mədəniyyətinə Azərbaycan töhfəsi

Bakı Beynəlxalq Multikuturalizm Mərkəzinin Analitika şöbəsinin müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Rəşad İlyasovun "Osmanlı elm və mədəniyyətinə Azərbaycan töhfəsi" kitabı çapdan çıxıb. Kitabın elmi redaktoru Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri akademik Kamal Abdulladır. Aktual məzmun və mahiyyət daşıyan kitabda elm tarixində çox az bilinən və araşdırılan Şirvanlı, Naxçıvanlı, Qarabağlı alim və mütəfəkkirlər tədqiq olunub. Kitab ön söz, giriş, üç fəsil və nəticədən ibarətdir. Girişdə "Azərbaycan əsilli Osmanlı müəllifləri" anlayışı açıqlanmaqla bunun "Azərbaycan məktəbi" çərçivəsindəki funksional rolu izah edilir. Belə ki, orta əsrlərdə müəyyən səbəblər üzündən Şirvan, Naxçıvan və Qarabağ regionlarından Osmanlı dövlətinə köçmüş alim və mütəfəkkirlər ən müxtəlif elm sahələrinə aid əsərlər yaratmışlar. Bu fəsildə elm tarixinə aid tədqiqatlarda geniş əksini tapmış "Azərbaycan məktəbi" fenomeni və onun əhatə dairəsinin məzmun və mahiyyəti açıqlanır. Birinci fəsildə "Azərbaycan məktəbi"nin yaranma tarixi, bu tarixin arxa planı və məşhur nümayəndələrindən bəhs olunur.




"Osmanlı elm və mədəniyyətinə Azərbaycan töhfəsi" kitabının ikinci fəsildə Azərbaycan əsilli alim və mütəfəkkirlərin hansı səbəbə görə Osmanlı dövlətinə köçməsi, Osmanlıda elm, Anadoluda dini-mistik vəziyyət kimi mövzular araşdırılır. Üçüncü fəsildə kitabın əsas məzmun və mahiyyətini təşkil edən Şirvan, Naxçıvan, Qarabağ əsilli Osmanlı müəlliflərinin həyat və yaradıcılığı təqdim olunur. Dövr ilə bağlı müxtəlif mövzular bir-birini tamamlayır. Qeyd olunan alimlərin əlyazma əsərləri haqqında məlumatlar verilir və onların elmi fəaliyyətləri işıqlandırılır. Kitabda Azərbaycan məktəbinin məşhur nümayəndələri haqqında verilən məlumatlar diqqəti çəkir. Bəhmənyar əl-Azərbaycani, Şühabəddin Sührəvərdi, Nəsirəddin Tusi və başqalarının həyat və yaradıcılığı tədqiq olunaraq maraqlı faktlarla oxuculara təqdim edilib.

Kitabın nəticə hissəsində isə qeyd olunur ki, Şirvanlı, Naxçıvanlı, Qarabağlı alim və mütəfəkkirləri mövzusundakı tədqiqat işi bu istiqamətdə aparılan ilk araşdırma mahiyyəti daşıyır. Onu da qeyd edək ki, nəticədə diqqətə çəkildiyi kimi, tədqiqatda Osmanlı dövlətində Azərbaycan əsilli müəlliflərin geniş şəkildə mövcudluğu bir çox aspekdən təhlil olunmamışdır. Kitab bu sahədə araşdırma aparmaq istəyənlər üçün istiqamət ola bilər.

***Nəzakət Ələddinqızı***



# Müəllimin bir dəyəri varmı? - DÜŞÜNCƏLƏR

**Lalə Mehralı**

**"Həyatda ən gözəl möcüzə kiçik ikən yaxşı bir müəlliminin olmasıdır", - deyib bir yazar. Bütün liderlər, sərkərdələr öz bacarığı və uğurları üçün həmişə müəlliminə minnətdar olub. "Müəllim yeganə sənətkardır ki, əsərinin üzərində adı yazılmır", - deyən Atatürk həm də cəmiyyətlərin sivilizasiya səviyyəsinin onların müəllimlərə verdiyi dəyərlə ölçüldüyünü deyirdi.**

İstanbulu fəth edən Fateh Sultan Mehmet şəhərə girəndə ona uzadılan güllərin əsl sahibinin özü yox, müəllimi olduğunu deyir. "Mən İstanbulun fəthinə deyil, məni onu fəth edəcək qədər yaxşı yetişdirən müəllimim Ağşəmsəddinlə eyni zamanda yaşadığıma sevinirəm", - deyib.

Xəstələri sağaltmağa çalışan həkimlər, dəmirə-metala həyat verən mühəndislər, hər addımında uğurlu olan iş adamları, ədalətli idarəçilər, müzəffər komandirlər, analar, atalar hamısı müəllimin əsəridir. "Mənə bir hərf öyrədənin 40 il qulu olaram", - deyən Həzrəti Əli, "dünyada hər şeyə dəyər biçmək olar, amma müəllim əməyinə heç vaxt dəyər biçmək olmayacaq", - deyən Sokrat, "müəllim əbədiyyətə hakim olan insandır. Onların təsir qüvvəsinin harada bitəcəyini heç vaxt bilmək olmaz" deyən Henri Adams, "yer üzündə əmin-amanlığı təmin edəcək sehrli çubuq anaların və müəllimlərin əlindədir", - deyən Əflatun, "ən çox müəllimə diqqət yetirməliyik, dedikləri ilə dünya yaradırlar. Müəllim yaxşı olarsa, öz cəmiyyətini xilas edər", - deyən İlber Ortaylı və daha nə qədər aydın da o əsərlərdəndir.

Həyat yalnız düz yoldan ibarət deyil, kələ-kötür, dolambac, enişi-yoxuşu olan yollar da çıxır önümüzə. Bizi çətin yol şəraitinə müəllim hazırlayır. Müəllimi yaxşı olan yolun maneələrinə, şəraitinə hazır və davamlı olacaq. Hamımız onlardan nümunə götürmüşük, hələ də götürürük. Bizə görə müəllim səhvsiz olur, büdrəmir, çaşmır, yanılmır. Müəllim cəmiyyətin ümumi əxlaq qaydalarına əməl edən, gözəl əxlaqı ilə nümunə göstərən olur. O həmişə səbirli, sevgi dolu və səxavətlidir.

Müəllim təvazökardır. O, səmimi ünsiyyət qura biləcəyiniz və məhsuldar söhbət edə biləcəyiniz birisidir. Onun söhbəti dəyərlidir, hər cümləsindən fayda götürəcəyik. O, boş-boş danışmaz, hər şeyi deməz, yersiz dinməz. Düzgün və sərrast danışır, yerində deyilmiş sözləri bıçaqdan itidir.

Müəllimin dərsi, əslində, sinfə girmədən əvvəl başlayır. Geyimi, salamlaşma tərzi, ünsiyyəti, gündəlik davranış və hərəkətləri ilə hər addımda dərs verir əslində. Övladlarımız da onları örnək götürmürmü sizcə? Çox olub evdə müəllimini yamsılayıb özündən kiçik bacı-qardaşına dərs öyrədənimiz. Müəllim də özünün müşahidə edildiyini, nümunə götürüldüyünü, təqlid edildiyinin fərqindədir. Beləliklə, o, seçimlərinə daha çox diqqət yetirir, nümunə olduqlarına daha yaxşı nümunə ola bilmək üçün. Müəllim şəxsiyyətinə, sənətinə xələl gətirəcək, nüfuzunu aşağı salacaq vəziyyətlərdən uzaqdır, o öz çəkisini, yerini və dəyərini anlayır.

Bizim idealımızdakı müəllim çirkin, pis vərdişlərdən uzaq olub həmişə. Müəllimi yalan danışan, kobud danışan görməmişik biz. Təkəbbürdən, təmtəraqdan çəkinən görmüşük. Müəllim dəyərdir, yaxşılığın insan formasıdır, hörmətdir, əxlaqdır, təvazödür, doğruluqdur bizim nəzərimizdə. Dünyada yaxşı 3 insan varsa, biri müəllimdir. Müəllim hamının güvəndiyi və hörmət etdiyi insan bilmişik tarixən. Ona olan bu güvəni, hörməti sui-istifadə etmədiyini görmüşük.

Amma... Bəzən edirlər. Sadaladığım bütün gözəl xüsusiyyətlər bizim cəmiyyətin ilahiləşdirdiyi, ideallaşdırdığı müəllim obrazıdır. Biz hamımız o cür müəllim görmək istəyirik, bəzimizin şansı gətirib, görüb, bəzimiz isə Müəllimlər Günündə, 8 Martda hədiyyə verə bilmədiyimiz üçün xor görülmüşük o müəllimlər tərəfindən. Üstünlüklərindən, hökmlərindən istifadə edən müəllimlərin var olduğunu siz də bilirsiniz, mən də.

Necə deyiblər? "Ustadının kəm baxanın gözünə ağ damar". Bəs şagirdinə xor baxan müəllimlər necə olacaq? Sinfin ön sırasını pul qarşılığında satan, hədiyyənin ağırlığı ilə öz müəllimlik şərəfini tərəziyə qoyan müəllimlərə nə edək? Olmadıqlarını dana bilmərik axı. Onlarla necə davranaq?

İnsan dünyaya gələndə əvvəlcə valideynlərini, sonra müəllimini tanıyır. Əvvəl bağçada, sonra məktəbdə. Valideynin kimsəyə əmanət etmədiyi övladını can rahatlığı ilə müəllimə əmanət etməsi ona olan etibarın, etimadın nümunəsi deyilmi? Biz Allahı tanımadan müəllimimizi tanımışıq, Allahı dərk etmədən müəllimlərimizi dərk etmişik. Şanslı idik, insan kimi, müəllim kimi gözəl insanlar işıq tutub yolumuza. Müəllimlərimin mənim şəxsi keyfiyyətlərimə, zəkama, bacarığıma, insanlığıma, mənəviyyatıma qatdığı zəhmətlərini ömrümcə unutmaram. Yolumuza işıq salan, ömrünü əridib bizə şam olan bütün müəllimlər, Müəllimlər Gününüz Mübarək!

# Xalqımızın xilaskarı, müasir müstəqil Azərbaycan dövlətinin banisi

*Qax rayonunda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib*





**"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Qax rayon təşkilatı oktyabr ayının 4-də Qax şəhər Heydər Əliyev Mərkəzində tədbir keçirib.**

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub. Sonra rayon Şəhidlər xiyabanı ziyarət edilib, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirələri ehtiramla anılıb.

Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

YAP Qax rayon təşkilatının sədri Natiq Allahverdiyev bildirib ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycanın tərəqqisi uğrunda çalışmış, xalqını üzləşdiyi çətinliklərdən xilas etmiş dahi şəxsiyyətdir. Bu gün Heydər Əliyevin banisi olduğu müstəqil Azərbaycan dünyada güclü və nüfuzlu dövlətə çevrilib. Prezident İlham Əliyev ölkəmizə möhtəşəm nailiyyətlər qazandırıb.

Qax rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev Ulu Öndərin öz mənalı və zəngin ömrünü bütövlükdə millətinə, xalqına, Vətəninə və dövlətinə həsr etdiyini, müqəddəs amallar uğrunda müstəsna fəaliyyət göstərdiyini diqqətə çatdırıb. Qeyd edib ki, məhz Ulu Öndərin gərgin əməyi və qətiyyətli siyasəti sayəsində yeni, müasir Azərbaycan dövləti qurulmuş, ölkəmiz dünya məkanında öz layiqli yerini tutmuşdur.

YAP İdarə Heyətinin üzvü, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aynur Sofiyeva Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsindən, müstəqil Azərbaycan dövlətinin inkişafı naminə müstəsna xidmətlərindən danışıb. Qeyd edib ki, Ulu Öndərin Azərbaycan xalqı və dövləti qarşısındakı əvəzsiz xidmətləri Onun fəaliyyətinin bütün mərhələlərini əhatə edir.



YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Vüqar İsgəndərov deyib ki, Ümummilli Lider Heydər Əliyev tarix yaradan fenomenal şəxsiyyətdir. Görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi, Azərbaycan dövlətçiliyini bütün təhlükələrdən qoruyan və inkişaf etdirən qüdrətli şəxsiyyət Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi illər müasir tariximizin şərəfli dövrünü əhatə edir.

Qax rayonu üzrə Gənclər və İdman sektorunun müdiri Elvin Həsilov və Vətən Müharibəsi iştirakçısı, Əmircan kənd orta məktəbinin müəllimi Təbriz Cavadovun çıxışlarında vurğulanıb ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanın tərəqqisini təmin edib, torpaqlarımız işğaldan azad olunub və ölkəmiz möhtəşəm nailiyyətlərə imza atmaqdadır.

Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərman, YAP sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri təqdim edilib.

# Ulu Öndərin əbədiyaşar ideyaları xalqımızın dəyərli sərvətidir

*Samux rayonunda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib*








**"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Samux rayon təşkilatı oktyabrın 4-də rayon Mədəniyyət Mərkəzində tədbir keçirib. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub.**

Sonra rayon Şəhidlər xiyabanı ziyarət edilib, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirələri ehtiramla anılıb. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov tarixi şəxsiyyət, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin Azərbaycan xalqının taleyində misilsiz rolundan danışaraq bildirib ki, Azərbaycan tarixinin bütöv bir dövrü Heydər Əliyevin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Ulu Öndərin Azərbaycana rəhbərliyi dövründə ölkəmiz bütün sahələrdə böyük inkişaf yolu keçib.

Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev deyib ki, Ulu Öndərin müstəqillik illərində ölkəmizə rəhbərliyi dövrü Azərbaycan xalqının tarixi yaddaşına sabitlik və inkişaf mərhələsi kimi həkk olunub. Bu gün müasir Azərbaycan Heydər Əliyev ideyaları əsasında inkişaf edərək zirvələr fəth edir.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclin deputatı Naqif Həmzəyev çıxışında söyləyib ki, ulu öndər Heydər Əliyev xalqımızın yaddaşında qurucu və xilaskar obrazını daim yaşadıb, qəlblərdə özünə əbədi məhəbbət qazanıb. Xalqımızın xilaskarı, müdrik dövlət xadimi Heydər Əliyevin əbədiyaşar ideyaları Azərbaycan xalqının dəyərli sərvətidir.

YAP İdarə Heyətinin üzvü, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov diqqətə çatdırıb ki, bu gün Ümummilli Lider Heydər Əliyevin arzuları reallaşır. Dahi şəxsiyyətin uzaqgörən, praqmatik siyasəti nəticəsində Azərbaycan dövləti yüksəlişlərlə, qələbələrlə müşayiət olunan şərəfli bir dövrünü yaşayır.

Samux rayon Ağsaqqallar Şurasının üzvü Nizami Məmmədov və Samux şəhər 2 saylı tam orta məktəb ərazi partiya təşkilatının üzvü Rufanə Məmmədova müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli Lider Heydər Əliyevin mənalı və şərəfli həyat yolu, zəngin və çoxşaxəli irsi barədə ətraflı danışıblar. Sonra rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərman, YAP sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri təqdim edilib. Tədbir bədii hissə ilə davam etdirilib.

# Təhlükəli oyuncaqlarla necə mübarizə aparmalı?

***Müasir uşaq oyuncaqları nə qədər çeşidli olsa da, onlar arasında uşaqlara ziyan verə biləcəkləri də çoxdur. Ona görə də oyuncaq alarkən onun görünüşündən tutmuş, materialına və istifadə göstərişlərinə qədər diqqət etmək lazımdır.***

Bəzi oyuncaqlar da var ki, onlara baxanda "bunu hazırlayarkən nə düşünüblər?" sualını verməmək olmur. Həm psixoloji olaraq uşaqları mənfi vərdişlərə öyrədən, həm də görünüşcə heç də birmənalı olmayan bu oyuncaqlar dünyanın bəzi ölkələrində yayılıb. Bəs, hansı oyuncaqlar təhlükəli hesab olunur? SİA mövzu ilə bağlı araşdırma aparıb.

Rusiyalı pediatr Olqa Tatarkina uşaqlar üçün təhlükəli oyuncaqları sadalayıb. Ekspertin fikrincə, ilk növbədə, oyuncaqlar yaşa uyğun olmalıdır: "Məsələn, bir yaşından kiçik uşağa kiçik detalları olan konstruktor verilməməlidir. Çünki bu, heç bir fayda gətirməyəcəkdir. Əksinə, körpə həmin kiçik detalları uda bilər. Əgər uşaq bir neçə kiçik maqnit udsa, onları ancaq cərrahi yolla çıxarmaq olar. Bütün yaşda olan uşaqlar üçün silah heç də yaxşı hədiyyə deyil. Güllələi pnevmatik tapançalar, arbaletlər, iti ucları olan oxlar, yaylar, qılınclar, xəncərlər kifayət qədər travmatikdir və uşaqların sağlamlığına ciddi ziyan vura bilər".

Həkimin sözlərinə görə, pərli oyuncaqlar da təhlükəlidir. Onlar işə salındıqda uşağın üzünü və ya gözlərini zədələyə bilər.

"Uşağınızın psixikasına zərər vermək istəmirsinizsə, bədheybətlər şəklində oyuncaqlar almayın. Musiqi alətləri də xeyli təhlükə yaradır. Tütək, fit kimi oyuncaqlar alarkən onların səsinin icazə verilən 65 desibel həddinədək olmasına diqqət yetirmək lazımdır. Əks halda uşağın eşitmə qabiliyyəti pozula bilər", - deyə ekspert xəbərdarlıq edib.

Bundan əlavə, Tatarkina müxtəlif səslər çıxaran parlaq, yanıb-sönən, parıldayan oyuncaqların da zərərli olduğunu bildirib. Belə ki, onlar hissləri həddindən artıq stimullaşdırır, nitqin inkişafını ləngidir və uşağın psixi sağlamlığını pozur.



## Hansı oyuncaqlar uşaqlar üçün təhlükə doğura bilər?



**1) Oyuncaq həkim seti**

Tibbi oyuncaqlar kiçik hissələrdən ibarət olduğuna görə uşaqlar üçün təhlükəli sayılır. Bu hissələr uşaqların nəfəs borusuna düşə bilər.

**2) Oyuncaq silahlar**

Oyuncaq silahlar və su silahları məsafə düzgün müəyyən edilmədikdə gözdə və üzdə yaralanmalara səbəb ola bilir. Bu tip oyuncaqları alarkən yanında qoruyucu eynəkləri olanları seçməlisiniz.

**3) Şarlar**

Oyun zamanı partlaya bilərlər. Bu uşaqda karlıq kimi problemlərə yol aça bilər. Ona görə 8 yaşdan kiçik uşaqlar üçün şar alınmamalıdır.



**4) Stress çarxı**

Son vaxtlar sürətlə yayılan stress çarxları da uşaqlarınız üçün təhlükəlidir. Fiziki yaralara səbəb olduğu kimi, psixoloji olaraq da diqqət dağınıqlığına yol aça bilir. Amerikanın bir çox məktəbində stress çarxları qadağan edilib.

Düşünürəm ki, fərziyyələri bir kənara qoyub olan hadisələrdən də danışmalıyıq. Təhlükəli hesab edilməyən amma bədbəxt hadisələrə səbəb olmuş oyuncaqlar barədə araşdırma apararkən qarşıma bir neçə qorxunc fakt çıxdı. Həmin faktları sizə təqdim edirik:

## "Yemək yeyən" oyuncaq

Qız uşaqlarını nəzərdə tutaraq istehsal olunan bu oyuncaq zərərsiz olmalı idi. Amma təəssüf ki, oyuncaq ümidləri doğrultmadı. Acanda yemək yedizdirilə bilən bu gəlinciyin ağzına mator quraşdırılıb ki, ona verilən plastik qidanı qəbul etsin. Təsadüfən uşaqlardan birinin saçı xüsusi qida əvəzinə gəlinciyin ağız hissəsinə daxil olub. Oyuncaq uşağın başının dərisini tamamilə qopardıb. Oyuncağa tətbiq edilən funksiyada "on"-"off" düyməsi olmadığından anında müdaxilə etmək mümkün olmayıb.

## "Cırt-cırtlı" bilərzik

Son zamanlar uşaqların ən sevimli oyuncaqlarından biri "cırt-cırtlı" bilərzikdir. Rəngli bilərziklər metal parçaların köhnə plastiklərə "press"lənməsi nəticəsində düzəldilir. Bir müddətdən sonra məşhur olan oyuncağın ucuz versiyası hazırlanmağa başlandı. Elə problemlər də bundan sonra özünü büruzə verib. Slikon örtük qopduqda, metal parçası uşaqların qolunu kəsib. Araşdırmalar nəticəsində "cırt-cırtlı" oyuncağın istehsalı dayandırıldı.

## Rəqqasə mələklər

Düyməni basıb, ipi dartdıqdan sonra bu gəlinciklər havada rəqs edir. Oyuncaq 6 il satıldıqdan sonra çoxsaylı şikayətlər nəticəsində satışdan yığışdırıldı. Rəqs edən gəlincik yerə düşən zaman həm uşaqların, həm də böyüklərin səhhətində problemlər yaradıb. İlk baxışdan mələk obrazı yaradan gəlincik 150 nəfərdə yaralanmaya səbəb olub.



## Maqnit birləşməsi

Kiçik maqnit parçalarını birləşdirmək uşaqların xəyal gücünü inkişaf elətdirir. Amma bu birləşmələr çox vaxt körpə üçün təhlükəlidir. Belə ki, maqnit parçalarını birləşdirən kiçik dəmirlər birləşmədən çıxa bilir. 20 aylıq körpə bu kiçik dəmir parçasını udandan sonra oyuncaq satışdan yığışdırıldı.

Oyuncaq uşaqların gələcək düşüncələrinin formalaşmasına, həyatı qavramalarına kömək edir. Psixoloqlar təsdiqləyiblər ki, oyuncaqlar uşaqlar üçün həyat yolunun başlanğıcıdır. Uşaqlar üçün oyuncaq seçərkən nəyə diqqət etmək lazımdır? Uşaq oyuncaqlarını seçərkən böyüklər nəyi rəhbər tutmalıdırlar?

Hər şeydən əvvəl, hər yaşda oyuncaqların alınmasının uşaqların inkişafı və öyrənilməsi ilə əlaqələndirilməli olduğunu bilmək lazımdır. Oyunun özü nəinki sevimli uşağı maraqlandırmalı, həm də onun üçün mümkün qədər faydalı olmalıdır. Nəzərə almaq



lazımdır ki, yeni oyuncaqlar həm körpənin fiziki sağlamlığına, həm də onun intellektual və əqli inkişafına düzəlməz zərər verə bilər.

- Körpələr üçün oyuncaqlar

Yaş kateqoriyası oyuncaqlar seçərkən axtarılması lazım olan ilk vacib meyardır. Körpələr üçün adətən asan təmizlənən və dezinfeksiya edilən çıngırdak və rezin oyuncaqlar alınır və istifadə olunur. Oyuncaqlar elə olmalıdır ki, uşağın dəri epitelini hər hansı şəkildə zədələyə biləcəyindən qorxmadan ağıza aparılsın.

- Bir yaşa qədər uşaqlar üçün oyuncaqlar

Aktiv şəkildə hərəkət etməyə, sürünməyə və ya ilk addımlarını atmağa başlayan bir yaşından kiçik uşaqlar üçün təkərli oyuncaqlar maraqlı və faydalı olacaqdır. Bu tip oyuncaqlar balaca insanın asudə vaxtını şaxələndirməklə yanaşı, həm də onun hərəkəti və fiziki inkişafı üçün əla stimula çevrilir. Oyuncaq seçərkən onların xarici xüsusiyyətlərini nəzərə almağa dəyər. O, nə görünüşü, nə də yüksək səs effekti ilə uşağı qorxutmamalıdır. Bu yaşda olan uşaqlar istənilən uydurma personajı çox real qəhrəman kimi qəbul edə bilirlər. Buna görə də, canavarlar və robotlar almaqdan imtina etmək, lakin rəngli kitab və ya piramida almaq daha yaxşıdır.

Ardı Səh. 12

ARAŞDIRMA

# Təhlükəli oyuncaqlarla necə mübarizə aparmalı?

Əvvəli Səh. 11

- 3 yaş və ondan böyük olan uşaqlar üçün oyuncaqlar

Üç yaşında uşaqların oyun fəaliyyəti aydın süjet-rol oriyentasiyası əldə edir. Yalnız nitq deyil, həm də yaradıcılıq qabiliyyətləri fəal şəkildə inkişaf edir. Buna görə də, uşaq



arsenalında əsas oyuncaqlarla yanaşı, rəngli karandaşlar, flomasterlər, boyalar, plastilin, rəngli kağız, rəngləmə kitabları və yaradıcılıq üçün müxtəlif dəstlər kimi elementlər də olmalıdır. Bu yaşda hər cür konstruktor oyuncaqlar və mozaika dəstləri maraqlı və faydalı olacaq. Uşaq mağazasına baş çəkərkən unutmayın ki, müəyyən bacarıqların formalaşdırılması və düzgün inkişafı təmin etmək üçün hər bir yeni oyuncaq əvvəlkindən



daha çox yönlü olmalıdır.

Yeri gəlmişkən, son günlərdə uşaqların əlində LGBT bayrağının rənglərini özündə ehtiva edən oyuncaqlar görürük. Bundan narahat olanlar da var, əhəmiyyət verməyənlər də. Ümumiyyətlə, ideoloji təsir vasitəsi kimi görünən oyuncaqların satışından



narahat olmağa əsas varmı?

**Bu barədə psixoloq Anara Quliyeva fikirlərini bölüşüb:** "Əlbəttə ki, bunların hər biri uşaq psixologiyasına təsir edən faktorlardır. Nəzərə alaq ki, günümüzdəki bir çox problemlər insanların psixoloji zəifliyindən qaynaqlanır. Uşaqlarda cinsiyyət



disforiyası, (cinsindən məmnun olmama) yəni xaricə təzahür edən cinsiyyətlə, onun üçün təyin olunan cinsiyyət arasında diqqətəçarpan uyğunsuzluqdur. Cinsi disforiya da daha çox düşüncə ilə bağlıdır. Yəni, hansısa hormonal dəyişiklikdən yaranmır, düşüncənin oturuşmasından sonra insan artıq öz bədəninə xas olan cinsi qəbul etmir, əks cinsi qəbul edir. Düşüncə isə ailənin, eyni zamanda da sosial mühitin təsirindən formalaşır. Buna görə də bu cür oyuncaqlarla, müxtəlif vasitələrlə şüuraltı edilən təsirləri uşaqlar normal olaraq qəbul edirlər. Tövsiyə edərdim ki, valideynlər uşaqlarına oyuncaq alarkən ehtiyatlı olsunlar. Ümumilikdə isə valideynlər təkcə oyuncaq seçimində yox, cizgi filmi seçimində və s. də diqqətli olmalıdırlar. Unutmayaq ki, uşaqlar ağ vərəqdirlər".



## Oyuncaqlarda uşaqları zəhərləyən kimyəvi maddələr

Ftalatlar sənaye istehsalında plastik məmulatları yumşaltmaq və elastiklik vermək üçün istifadə edilən xüsusi kimyəvi birləşmələrdir. Eyni zamanda, həkimlər bu maddələri uşaqların sağlamlığı üçün ən zərərli maddələrdən biri hesab edirlər, çünki bədəndə toplanan ftalatlar aşağıda-



kılara qadirdir:

Bu maddələrə ən çox bazarımızda geniş yayılmış PVC məhsullarında rast gəlinir.

Onların zərərli keyfiyyətləri oyuncaq-



lardan ətraf mühitə sürətlə yayılması ilə bağlıdır. Üstəlik, zəhərli birləşmələrin miqdarı malların xarab olma dərəcəsindən asılıdır.

Ftalatlar uşaq orqanizmlərinə dəri vasitəsilə və tənəffüs zamanı daxil olur və bir yaşa qədər uşaqlar tez-tez hər şeyi daddıqları üçün bu zərərli birləşmələr, şübhəsiz ki, tüpürcəklə orqanizmlərinə daxil ola bilir.

Avropa ölkələrində bu cür maddələr qadağan olunanlar arasında olsa da, ölkəmizdə hələ də PVC məhsullarına əlavə olunur.



Müxtəlif plastik məhsulların bizim və uşaq orqanizmləri üçün nə qədər zərərli olduğunu anlamaqdan ötrü xüsusi müayinə apa-



rılmalıdır. Ancaq normal şəraitdə bu həmişə mümkün olmur və oyuncaq qadcetlərinin çoxunun bizə Çindən gətirildiyini nəzərə alsanız, xüsusilə diqqətli olmalısınız.

## Təhlükəli oyuncaqları "süzgəcdən keçirməyə" kömək edəcək tövsiyələr

Əlbəttə ki, oyun aksesuarları uşaqlar üçün nəzərdə tutulub, lakin onlar böyüklər tərəfindən alınır. Buna görə də yeni kukla və ya avtomobilin təhlükəsizliyinə cavabdeh olan valideynlərdir. Təhlükəli oyuncaqları faydalı və ya ən azı neytral olanlardan "süzgəcdən keçirməyə" kömək edəcək bəzi sadə tövsiyələr təklif edirik.

- İlk tövsiyə oyuncaqda və ya onu müşayiət edən sənəddə CE işarəsini tapmaqdır. Belə bir işarə məhsulun Avropa təhlükəsizlik standartlarına uyğunluğunu göstərir. Həmçinin qablaşdırmada istehsalçı və ya idxalçı haqqında danışan etiketlər olmalıdır.

- Ancaq yüksək qiymət, təəssüf ki, həmişə keyfiyyət və təhlükəsizlik göstəricisi deyil. Buna görə, bir oyuncaq satın almadan əvvəl, forumlarda anaların rəylərini və fikirlərini oxuyun, sertifikata və birbaşa mağazada istifadə üçün təlimatlara baxın.

- Bütün xəbərdarlıqları oxuduğunuzdan əmin olun. Onlar, məsələn, alov və ya suyun yanında oyuncaq istifadə etməyin qadağan edilməsi haqqında məlumat vermis ola bilərlər. Eyni zamanda, "Yalnız böyüklərin iştirakı ilə oynamaq tövsiyə olunur" xəbərdarlığı da qeyd oluna bilər.

- Oyun aksesuarlarını yaş normalarını nəzərə alaraq seçdiyinizə əmin olun. Əlbəttə ki, yeniyetmə oyuncaqları körpələr üçün uyğun deyil. Keyfiyyətli malların qablaşdırmasında və ya etiketlərində həmişə üç yaşından kiçik uşaqlar üçün potensial təhlükə barədə xəbərdarlıq işarəsi var.

- Yumşaq oyuncaq ayılar və dovşanlar "su prosedurları" üçün uyğun olmalıdır. Bundan əlavə, bu cür oyuncaqlarda kiçik hissələr - gözləri, düymələrdən ehtiyat etmək vacibdir, çünki uşaq onları dişləmək



və udmaq qabiliyyətinə malikdir.

- Kifayət qədər davamlı plastikdən hazırlanmış oyuncaqları atın. Üç yaşından kiçik uşaqlar hər şeyi "tutmaq üçün" sınamağı sevirlər, buna görə də xüsusilə dişləndikdə və ya yerə çırpıldıqda zədə almayacaq plastik oyuncaqlar məqsədəuyğundur.

- Körpələr üçün oyun avadanlıqları iti, yapışqanlı və ya çıxıntılı əşyaları ehtiva etməməlidir. Uşaq bu kiçik hissələri udmaq və boğulmaq qabiliyyətinə malikdir.

- Yumşaq oyuncaqlarda, tikişlərin keyfiyyətini yoxlayın, əks halda tikişlər parçalanacaq və içlik uşağın ağzına dolacaq.

- Körpə öz yumruğunu ağzına asanlıqla yerləşdirməyi bacarır, ona görə də mütəxəssislər toplar və uşağın yumruğundan kiçik (adətən 5 santimetr) digər oyuncaqlar almamağı məsləhət görürlər.

- Güclü kimyəvi qoxu olan yumşaq plastik və rezin məhsullardan çəkinin.

- Həddindən artıq yüksək səs çıxaran musiqili və ya digər cırıltılı oyuncaqlar almayın. Bu, körpənin eşitmə funksiyasına təsir göstərə bilər.

*Ləman Sərraf*

# Fransanın ermənipərəst mövqeyinin PƏRDƏARXASI



***Müstəqillik qazandığı gündən rəsmi İrəvanın müstəqil siyasət yürütməməsindən, hər zaman xarici himayəçilər üçün "forpost" olmaq istəyindən, niyyətindən və ermənilərin bu xislətindən məharətlə istifadə edən Fransanın Ermənistanda yeni hərbi missiya yaratması Parisin çirkin niyyətlərindən xəbər verir. Fransa yeni hərbi missiya yaratmaqla Ermənistanı yeni müharibəyə hazırlamaq niyyətindədir və bunu dərk etməyən ermənilər görünür ki, uğradıqları hərbi və siyasi məğlubiyyətdən nəticə çıxarmayıblar.***

Tarix boyu hansısa dövlətin himayəsində, kölgəsi altında mövcudluğunu qorumağa çalışan Ermənistanın indi də Fransanın kölgəsinə sığınmaq istəyi və həmin dövlət üçün "forpost" olmaq niyyəti göz önündədir. Məsələ burasındadır ki, bu dəfə ermənilərin himayəçi tapmaq niyyəti ilə Fransanın "forpostu" olmağa can atması Ermənistana çox baha başa gələcək. Bu gün Fransaya qucaq açan və özlərini fransızların himayəsinə, ağuşuna atan ermənilər bilməlidirlər ki, məhz elə bu səbəbdən də Ermənistan Livanın taleyini yaşamalı olacaq. Ümumiyyətlə, bilməlidirlər ki, tarixi təcrübələr Fransanın daxili məsələlərə burnunu soxmasının hansısa bir ölkəyə yaxşı heç nə vəd etmədiyini təsdiqləyir və Ermənistan da istisna deyil. Məhz buna görə də Ermənistan cəmiyyəti artıq həmin ölkələrin taleyini yaşamağa hazır olmalıdır.

Bəli, Fransanın ermənipərəst siyasət yürütdüyü çoxdan bəllidir. Torpaqlarımızı ermənilər 30 ilə yaxın işğal altında saxladıqları dövrdə belə diplomatik danışıqlar zamanı Fransanın ermənipərəst mövqeyi görünürdü. Bir zamanlar münaqişənin həllində mükəlləf olan ATƏT adlı qurumun həmsədr ölkələrindən biri sayılan Fransanın 30 ilə yaxın müddət ərzində məsələnin həllinə deyil, onun uzanmasına, dondurulmasına xidmət etməsi də həmin ölkənin ermənipərəstliyini təsdiq edir. Hələ 44 günlük müharibə dönəmində də, müharibə bitdikdən sonra da Fransanın haqsız ola-ola Ermənistanın tərəfində olması da sirr deyil və bu fakt özü də erməniperəstliyin isbatıdır. Heç kim üçün sirr deyil ki, Fransa regionda erməniperəst siyasət yürüdür, hansıki bunun da pərdəarxası məqamları var və bu məqamlar rəsmi Parisin məramını, mahiyyətini ortaya qoyur.

BMT kimi mötəbər bir beynəlxalq təşkilatın məlum dörd qətnaməsini, Ermənistanın qanunsuz silahlı birləşmələrinin Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılması barədə qərarını ermənilər onillər boyu hesaba almadılar və buna heç məhəl də qoyulmadı. ATƏT-in həmsədr ölkəsi kimi Fransa nəinki həmin qərarların, qətnamələrin icrasına töhvə verməyə can atmadı, ermənilərin bu qərarlara, qətnamələrə məhəl qoymadığına heç münasibət də bildirmədi. Azərbaycan öz torpaqlarını hərbi yolla işğaldan azad etdiyi, qanunsuz erməni silahlı dəstələrinin öz ərazilərindən çıxarılmasını təmin etdiyi zaman BMT qətnamələrini özü icra etmiş oldu. O zaman bəs nəyə görə bu, Fransanı, özü də ATƏT-in həmsədr ölkəsini qane etmirdi? Azərbaycan BMT adlı dünyanın bir nömrəli, eləcə də ən mötəbər beynəlxalq təşkilatının dörd qətnaməsinin icrasını reallaşdırırdı axı, qeyri-adi nə edirdi ki, Fransa əl-ayağa düşüb erməniperəstliyini açıq-aşkar nümayiş etdirməli oldu? Cəmi 44 gün davam edən və ən az itgilərlə bitən müharibədə Azərbaycan erməni separatçılarının, terrorçuların işğal altında saxladığı torpaqları işğaldan azad etdi və burada Fransanı nə qane edə bilmirdi ki, ermənilərin müdafiəsinə qalxırdı? Öz tarixi torpaqlarını işğaldan azad edən Azərbaycanın həmin əraziləri xarabalığa çevirən Ermənistan tərəfindən fərqli olaraq, quruculuq işlərinə başlaması, infrastruktur layihələrini gerçəkləşdirməsi, yaşayış üçün əlverişli olan bütün mümkün şəraiti yaratması, abadlıq işləri aparması Fransanı niyə narahat etməyə başladı? Axı Azərbaycan bölgədə yeni reallıq yaratdı, təhlükəsizliyi, sabitliyi təmin etdi, ərazilərin abadlaşdırılmasına başladı və bütün bunlar təqdirəlayiqdir, alqışlanmalıdır. Amma rəsmi Paris tamamilə başqa rakursdan baxmalı oldu və bəlli oldu ki, ərazilərin işğaldan azad olunması da, bərpası da, abadlaşdırılması da, təhlükəsizliyin, sabitliyin təmin olunması da Fransanı qane etmir.

Öz ərazilərində antiterror tədbirləri ilə Azərbaycan qanunsuz silahlı dəstələrin mövcudluğuna son qoydu, onların silahı yerə qoymasını, ərazilərimizi tərk etməsini təmin etdi, hansıki bu, qanunsuz silahlı dəstələrin ərazilərimizi qeyd-şərtsiz tərk etməsi barədə BMT qətnaməsinin icrası deməkdir və bundan Fransanın qıcıqlanması heç nəyə uyğun gəlmir. Azərbaycan həmin tədbirlərlə öz suverenliyini bütün ərazilərində bərpa etdi və qeyri-adi, qanunsuz heç nə etmədi ki, bundan Fransa qıcıqlansın. Az qala əsrin üçdə birinə yaxın müddət ərzində davam edən münaqişənin bitməsi rəsmi Parisi narahat etdiyi görünür. Fransa rəsmilərinin ifadələrindən də bu narahatlıq və qıcıq hiss olunur.

Ermənistana səfər edən Fransanın XİN başçısı Katrin Kolonna səfər ərəfəsində Ermənistanla hərbi əməkdaşlığı gücləndirəcəklərini, İrəvana hərbi attaşe təyin olunacağını, Sünikdə konsulluğun açılacağını bildirmişdi və bu özü də rəsmi Parisin mövqeyi ilə bağlı müəyyən məqamlardan xəbər verir. Maraqlıdır, niyə Fransa kimi bir Avropa ölkəsi Ermənistan kimi cırtdan bir ölkə ilə hərbi əməkdaşlığa, hərbi attaşe təyin olunmasına, konsulluğun açılmasına can atır? Axı Fransanın belə bir əməkdaşlığa, xüsusən də Ermənistan kimi bir məğlub ölkə ilə hərbi əməkdaşlığa qətiyyən ehtiyacı yoxdur. Doğrudur, fransızlar müxtəlif səbəblər, bəhanələr uydura bilərlər, amma uydurduqlarının heç biri həqiqətə uyğun deyil və yenə də Fransanın erməniperəst mövqeyini, həmçinin məkrli niyyətini ifşa edir. "Fransa Ermənistanın müdafiə sahəsində tələbatlarını araşdırır. Prezident Makron şəxsən prosesləri izləyir, çünki bu məsələ Fransa üçün çox vacibdir. O, bildirib ki, bizim üçün əsas məqsəd Ermənistanın ərazi bütövlüyü, suverenliyi və ölkə əhalisinin müdafiəsidir", deyən Fransanın müdafiə naziri Sebastyan Lekornyu bununla əslində, ölkəsinin də, onun liderinin də erməniperəstliyini açıb ortaya qoyur. Soruşmaq tam yerinə düşərdi ki, nəyə görə Fransa Ermənistanın müdafiə sahəsində tələbatlarını araşdırmalı, nəyə görə bu ölkənin prezidenti üçün əsas məqsəd işğalçı ölkə əhalisinin müdafiəsi olmalıdır? Xüsusən də Ermənistan əhalisinin heç bir müdafiəyə ehtiyacı olmadığı hazırki halda belə bir məqsəd mümməmalı suallar doğurur və Fransanın iç üzünü açır. "Biz ölkədə Ermənistanda indiyədək mövcud olmayan hərbi missiya açmışıq. Bu missiya bizə gündəlik olaraq Ermənistan ordusu və hakimiyyəti ilə əlaqədə olmaq, onların müdafiə sahəsində tələbatlarını öyrənməyə imkan verəcək", deyən Lekornyunun fikirlərin də tam şəkildə aydın olur ki, Fransa Ermənistanı silahlandırmaq, onu yeni müharibəyə hazırlamaq niyyətindədir.

Tarixi faktlara nəzər saldıqda görürük ki, Fransa öz müstəmləkəçilik siyasətini müharibə və münaqişələr üzərində qurub, sülh və əmin-amanlığın təmin olunmasında yox. Fəaliyyətinə və eyni zamanda məhz elə bu tarixi faktlara istinad edərək belə bir qənaətə gəlinir ki, Fransa regionda dayanıqlı sülhün əldə edilməsi yolunda yenə də pozucu və qərəzli mövqedədir. Əslində, Fransa xarici işlər naziri Katrin Kalonnanın İrəvanda verdiyi bəyanatlar özü də bu kontekstdə diqqəti cəlb edir və bu bəyanatın özünün belə pozucu niyyət daşıdığı göz önündədir. Göz önündə olan odur ki, hərbi baxımdan işğalçı ölkəni ruhlandırmaq üçün verilən bəyanatlar, ifadə edilən fikirlər bitmiş münaqişənin yenidən canlandırılması niyyəti daşıyır. Hal-hazırda Afrikada məhz Fransanın təhriki ilə, eləcə də həmin ölkənin birbaşa iştirakı ilə davam edən münaqişələr, hərbi çevrilişlər və bu kimi proseslər deyilənləri, həmin niyyəti təsdiq edir. Təsdiq edir ki, Fransa hansı ölkədə proseslərdə iştirak edirsə, həmin ölkədə pozuculuq niyyəti ilə, qərəzli niyyətlə iştirak edir. İndi Ermənistan da istisna hal deyil. Heç şübhəsiz ki, Fransa indi də qərəzli niyyətlə Cənubi Qafqazdakı proseslərə qatılır. Tam aydın şəkildə görünür ki, bölgədə sülhün bərqərar oilməsı rəsmi Parisin maraqlarına cavab vermir və məhz bu səbəbdən də Fransa burada da Afrika siyasəti yürütməyə çalışır.

Hələ də ermənilər başa düşə bilmirlər ki, nə qədər erməniperəst olsa belə Fransanın öz məqsədi var. Başa düşə bilmirlər ki, onlar və ölkələri ilk növbədə alət olaraq istifadə olunur. Fransa və eləcə də bəzi Qərb dairələri üçün kiçik bir ölkəni, özü də hər zaman, xüsusən də indiki durumda asılı, ehtiyac içərisində olan bir ölkəni istənilən oyuna cəlb etməkdən asan heç nə ola bilməz. Hazırki durumda bundan məharətlə istifadə edən Fransa Ermənistanı ilk növbədə Rusiya ilə mübarizənin növbəti cəbhəsinə çevirir və ermənilər isə bunun onlara necə baha başa gələcəyini görmək istəmirlər. Sanki ermənilər görə bilmirlər ki, Fransa Rusiyanın Ermənistanda hərbi mövcudluğuna alternativ olaraq, öz hərbi mövcudluğu üçün çox çalışır. Onsuz da ruslaрın əleyhinə qızışdırılan və Rusiya əleyhinə çox təhlükəli fikirlər səsləndirən ermənilər Moskvanın artıq hədəfindədirlər və indi Fransanın, bu ölkənin rəsmilərinin İrəvanda səsləndirdikləri daha təhlükəli bəyanatları Ermənistan üçün fəlakətlər vəd edir. Rusiya indi Ermənistanda, yaxud da ümumilikdə Cənubi Qafqazda mövqeyini Fransaya güzəştə getmək, hədiyyə etmək kimi bir niyyətdə ola bilməz və bunun bir rezonans doğuracağı təkzibedilməzdir. Ruslar onların hərbi mövcudluğunun əvəzinə fransızların hərbi mövcudluğuna ermənilərin sadə dillə desək, yol açmasını qətiyyən həzm etməyəcəklər. İndi fransızların oyunlarına alət olan ermənilərı nankorluqlarına görə Moskva bağışlayası deyil və qətiyyən belə görünmür. Üstəlik, Qərbin, bəlkə elə Fransanın özünün xoşuna gəlmək üçün Roma statusunun Ermənistan parlamenti tərəfindən ratifikasiya olunması fonunda mənzərə tamamilə fərqlidir və vəziyyət daha kəskindir. Məhz elə bu mənzərənin fonunda hələ bir fransızların hərbi mövcudluq baxımından İrəvanda iddia ilə çıxış etməsi və buna da Ermənistanın, ermənilərin rəvac verməsi bu ölkə üçün də, onun vətəndaşları üçün də, ən azından yaxşı heç nə vəd etmir.

Fransa Ermənistanı çox təhlükəli oyunların meydançasına çevirməyə çalışır. Afrikadakı geo-siyasi itkilərini Cənubi Qafqazda kompensasiya etməyə cəhd edən Fransa hakimiyyəti bunun üçün Ermənistandan istifadə etmək niyyətindədir. Afrikanın 10-dan artıq ölkəsi ilə Fransanın strateji səviyyədə olan münasibətlərini hakimiyyətə gəldikdən sonra diplomatik əlaqələrin dondurulmasına qədər pisləşdirən Makronu və onun hakimiyyətini qətiyyən ermənilər və Ermənistanla əlaqələr maraqlandırmır. Nə Fransa prezidenti Makron, nə də bu ölkə hakimiyyəti Ermənistan və erməni cəmiyyəti üçün çalışmır, əks halda ön planda İrəvanı sülh prosesinə sövq etməli durardı, qızışdırıb müharibəyə, qarşıdurmalara təhrik etmək yox. Əgər Fransa hakimiyyəti həqiqətən də bu ölkənin müdafiə naziri Sebastyan Lekornyunun dediyi kimi, Ermənistanın suverenliyi və ölkə əhalisinin müdafiəsi barədə düşünsəydi və bu, rəsmi Parisin maraqları daxilində olsaydı, onları hərbi əməliyyatlara, müharibələrə ruhlandıran bəyanatlarla çıxış edilməz, erməniləri çətin duruma salacaq vəziyyətlərə rəvac verilməzdi.



Ermənistana dayaq durmağı güya özünün şərəf məsələsi kimi təqdim edən Fransa hakimiyyətinin erməniperəstliyi göründüyü kimi, əslində, hazırki dövrdə geosiyasi itgilərinin bərpası niyyətilədir və instinktiv olaraq, özünü müdafiə etmək hissinin təzahürüdür, hansıki bu, ermənilər, eləcə də fransızlar üçün arzuolunan deyil. Sözsüz ki, belə təhlükəli oyunlara baş vurmasına, çirkin niyyətili addımlar atmasına görə Fransa hakimiyyəti tarix qarşısında cavab verəcək. Elə sıravi, sadə fransızlar da bu hakimiyyətdən hesab soracaqlar. Amma həmin o Fransa hakimiyyətinin oynadığı oyunlara görə ən böyük zərbəni alacaq ermənilər sonda daha böyük ziyan qarşısında, hətta fəlakətlə üz-üzə qalacaqlar. Odur ki, erməniperəst mövqe nümayiş etdirən Fransa hakimiyyətinin oynadığı oyunlar tarixin bağışlamayacağı böyük səhvlərdir və bu səhvlər Ermənistan üçün də, Fransa üçün də daha böyük itgilər deməkdir.

***İnam Hacıyev***

# Niyə Əli Kərimli Vardanyanı Qubad İbadoğlu ilə müqayisə edir?



AXCP sədri Əli Kərimli anormal mövqeyi, sərsəm ifadələri, yersiz təklif və ideyaları ilə cəmiyyətdə özü haqqında qeyri-ciddi partiya sədri imici formalaşdırıb. Bu baxımdan, onun söylədiklərinə, dilə gətirdiklərinə ictimaiyyət önəm vermir. Dəfələrlə sosial şəbəkələrdə Ə.Kərimli haqqında yazılan "Əli Kərimli psixoloji tramva alıb", yaxud da "it hürər karvan keçər", başqa bir sosial şəbəkə istifadəçisi isə "Əli bəyi danışdıran Sorosun pullarıdır" və bu kimi digər ittiham xarakterli ifadələrə rast gəlmişəm. İndi də Ə.Kərimli daha bir anormal statusu ilə gündəmə gəlməklə özünü rüsvay edir. Deyir ki, Qubad İbadoğlu, Nazim Baydəmirli, Niyaməddin Əhmədov, Bəxtiyar Hacıyev Ruben Vardanyanla eyni məsuliyyəti bölüşürlər: "Sizcə, Azərbaycan hakimiyyəti Ruben Vardanyanı tez azad edəcək, yoxsa Niyaməddin Əhmədovu?...Əsl biabırçılıq onda olar ki, Ruben Vardanyan azad olandan sonra da Niyaməddin Əhmədov, Qubad İbadoğlu, Nazim Bəydəmirli, Bəxtiyar Hacıyev, Elxan Əliyev, Əlizamin Salayev və digər siyasi məhbuslar həbsdə qala. Ümid və tələb edək ki, hakimiyyət bu biabırçılığı bizə yaşatmasın, siyasi məhbusların hamısını azad etsin".

## Ə.Kərimli və ətrafında olan trollar cəmiyyət maraqlarına yönəlik fəaliyyətdən və çıxışlardan uzaqdırlar

Sosial şəbəkələrdə özünü "bilikli" və "savadlı" hüquqşünas kimi reklam etməyə çalışan Ə.Kərimli anlamır ki, cinayətkar elə cinayətkardır. Sadəcə fərq ondadır ki, biri az, digəri isə ağır cinayət törədir. Ruben Vardanyan, Arayik Arutunyan və digərləri insanlığa və bəşəriyyətə yönəlik cinayət törədiblər, Niyaməddin Əhmədov, Qubad İbadoğlu, Nazim Bəydəmirli, Bəxtiyar Hacıyev, Elxan Əliyev, Əlizamin Salayev və digərləri qanunvericiliyin tələblərini pozmaqla cinayət törədiblər. Təbii olaraq məhkəmənin geniş və əhatəli araşdırmalarından sonra hər kəsə haqq etdiyi cəza veriləcək. Ona görə də Ə.Kərimlinin müqayisəsi yanlış və kimlərinsə maraqlarına xidmət edir. Həm də təsdiq edilir ki, Ə.Kərimli əslində, bir pozuculuq xətti götürüb, onu inkişaf etdirməyə cəhd edən şəxsdir. Lakin yuxarıda qeyd etdiyim kimi, cəmiyyət onun qara cizgilərdən ibarət olan şəxsi və siyasi fəaliyyətinə bələd olduğundan, statusunu anormal fikirlər kimi qəbul edirlər. Ümumiyyətlə, görünən ondan ibarətdir ki, Ə.Kərimli və ətrafında olan trollar cəmiyyət maraqlarına yönəldilmiş fəaliyyətdən və çıxışlardan uzaqdırlar. Hər zaman çalışırlar ki, cəmiyyətimizdə bir gərginlik yaransın, insanlar bədbin və narahat olsunlar.

## Gültəkin Hacıbəyli özünü ağıllı göstərməyə cəhd edir

Dağıdıcı müxalifətin əsas simalarından olan Cəmil Həsənli, Əli Kərimli, Tofiq Yaqublu, Gültəkin Hacıbəyli, Fuad Qəhrəmanlı və digərləri qeyri-ciddi, anormal fikirlər yaymağa adət ediblər. Bir növ onların fəaliyyət tərzinə çevrilib. Fikir verin, Azərbaycan Qarabağda unikal antiterror tədbirləri keçirdi, dağıdıcı ünsürlər qələbəmizə kölgə salmağa xidmət edən açıqlamalar yayırlar. Sanki ermənilərin məğlubiyyətə düçar olmasından pərişan olublar. Qınayan, ittiham edən olmasa Arayikin, Vardanyanın, Saakyanın və digər terrorçuların həbsinə görə üzüldüklərini dilə gətirər və sosial şəbəkələrdə onların müdafiə olunması üçün çağırışlar edərlər. Əgər sabah belə bir çağırış olsa, təəccüblü görünməyəcək. Çünki erməni lobbisindən maddi və mənəvi dəstək alanlardan hər cür erməni təəssübkeşliyindən çıxış edərlər. Hələlik isə, cəmiyyətdə erməni maraqlarını ifadə edən məlumatlar paylaşırlar. Sanki erməni katalikosu Qaragendən Azərbaycan dövlətinə və xalqına qarşı qərəzli informasiyalar yaymaq, şər və böhtanlar səsləndirmək üçün xeyir dua almış kimi özünü cəmiyyətə təqdim edən Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü Gültəkin Hacıbəylinin sərsəm açıqlamalar yaymasını göstərmək olar. Bu məxluq öz ağlı əsasında iddia edir ki, guya cəmiyyətdə böyük güvənsizlik problemi var: "Yalançının evi yandı, heç kim inanmadı misalını hamınız bilirsiniz. Azərbaycan hakimiyyəti papağını qarşısına qoyub düşünsün: gör bu xalqın inamını necə qırıb, güvənini necə sarsıdıb ki, ermənilərin Qarabağdan kütləvi köç etməsinə, bütün dünyanın "Dağlıq Qarabağ bitdi" deməsinə, Azərbaycan ordusunun, hüquq-mühafizə orqanlarının yuxarı Qarabağı tam nəzarətə götürməsinə rəğmən cəmiyyətin önəmli bir kəsimi hələ də qələbəmizə inanmır, burada bir hiylə, tələ, təxribat, rus barmağı axtarır. İnsanlar gözləri ilə gördüklərinə belə inana bilmirlər. Böyük güvənsizlik problemi var cəmiyyətdə. Xalq bu hakimiyyətin onun üçün hansısa faydalı iş gördüyünü, ölkənin mənafeləri üçün çalışdığını təsəvvür edə bilmir".

## Vay xalqdan ayrı düşüb, erməni dəyirmanına su tökənlərin halına

Müəyyən məqamlarda Ə.Kərimlinin qoltuqçağacı funksiyasını yerinə yetirən G.Hacıbəyli dayaz, məntiqsiz fikirləri fonunda öz təbirincə hakimiyyətə məsləhət verib, çıxış yolu da göstərir: "Hakimiyyət təmsilçilərinin yerinə olsam bundan ciddi narahatlıq duyardım. Əsla yaxşı əlamət deyil və toplumun içində yığılmış aqressiv enerjinin səviyyəsinin göstəricisidir. Belə görünür ki, bu enerjini erməni işğalçıları üzərində mütləq qələbə də boşalda bilməyəcək. Xalqın güvənini qazanmaq üçün, ilk öncə, o xalqa dəyər verdiyinizi hiss etdirməlisiniz".

G.Hacıbəylinin bu fikirləri öz ağlının məhsulu olmadığı şübhəsizdir. İkinci isə, bu xanım hələ də anlamır ki, xalqın hansı hisslər keçirdiyini sən duya bilməzsən. Çünki sən və bağlandığın məkrli dairələr bütövlükdə erməni ruhuna bürünüblər. Ermənilərin məğlubiyyətin nəticəsi olaraq qapandığı sarsıntı, depressiya və üzgünlük sizlərə də şamil olub. Ona görə də Azərbaycan xalqının necə qürurlandığını, sevinc və xoşbəxt anlar yaşadığını sizlər hiss edə bilməzsiniz. Bu baxımdan, vay xalqdan ayrı düşüb, erməni dəyirmanına su tökən sizlərin halına.

***İ.ƏLİYEV***

## Yenilənmiş "Nar"ı hiss et və hədiyyələr qazan!

"Nar" ötən həftə yenilənmiş brend konsepsiyasının ardınca yeni kampaniyanın başlandığını elan edir. Bu kampaniya üç reklam çarxıvasitəsilə müxtəlif çeşidli sərfəli məhsul və xidmətləri nümayiş etdirmək üçün nəzərdə tutulub. Xatırladaq ki, brendin yeni yanaşmasının əsasında müştəriyönümlülük, sərfəlilik və əlçatanlıq prinsiplərini müştərilərə daha da yaxın etmək dayanır.




Bundan əlavə, yeni brend konsepsiyasının sevincini abunəçiləri ilə bölüşmək üçün mobil operator yaxın günlərdə bir neçə müsabiqə keçirəcək. "Nar" abunəçiləri bu müsabiqələrdə PlayStation 5, Airpods, iPhone 14, Apple saatı, iPad AIR 5GB və Yandex stansiyası Max kimi möhtəşəm hədiyyələr qazanmaq şansı əldə edəcək. Yarışmadan vaxtında xəbərdar olmaq üçün sizi "Nar"ın sosial media səhifələrini izləməyə dəvət edirik.

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.



Elçin Bayramlı

## Dünyamızı işıqlandırmaq üçün özünü tükəndirən şam

### ESSE

**Dünyada 20 mindən artıq peşə və sənət növü var. Lakin bütün bu peşələrin sahiblərini bir peşə sahibi yetişdirir. Bu, Müəllimdir! Ona görə də, yazı qaydalarını pozmaq bahasına olsa belə, bu sözü böyük hərflə yazmaq lazımdır.**

Harada, nə üzrə və hansı qaydada tədris verməsindən asılı olmayaraq Müəllim özündən daha yüksək biliyə mailk olan, cəmiyyətə töhfələr bəxş edəcək ağıllı, mədəni və ziyalı insanlar yetişdirmək istəyi ilə çalışır. Məhz buna görə Müəllim adı şərəfli sayılır və uca tutulur.

Təsadüfi deyil ki, bizim cəmiyyətdə müxtəlif müraciətlər formaları (yoldaş, cənab, bəy, xanım) olsa da, insanlarımız hörmətə layiq bildikləri şəxsə "Müəllim" deyə müraciət edirlər. Təkcə bu fakt "Müəllim"in ən hörmətli söz olduğunun əyani sübutudur.

Bəşəriyyət tarixi elmi-texniki tərəqqiyə, mədəni-ictimai inkişafa görə ustadlara, müəllimlərə borcludur. Bütün tarix boyu əldə edilmiş biliklər ustad-şagird ardıcıllığı ilə nəsildən-nəsilə ötürülüb və bu günümüzədək gəlib çıxıb. Hansı xalqın müəllimləri aydın fikirli, elmli, dünyagörüşlü olubsa, o xalq daha çox inkişaf edib.

Azərbaycanda həmişə ən hörmətli şəxs sayılan Müəllimin sözü ağsaqqal sözü kimi qəbul olunub. Hətta ən qüdrətli hökmdarlar belə müəllimlərinin qarşısında baş əyiblər, onları özlərindən yuxarı başda əyləşdiriblər. Cəmiyyətimiz də onlara həmişə çox böyük hörmətlə yanaşıb. Müəllimi uşağın ikinci valideyni sayıblar. Keçmişdə uşağı məktəbə gətirən valideynlər müəllimə deyirdilər- "əti sənin, sümüyü mənim". Bu ifadənin arxasında çox dərin və müdrik təfəkkür dayanır. Bütün bunlar xalqımızın elmə, təhsilə nə qədər böyük önəm verdiyinin göstəricisidir.

Hər xalqın tarixinin müəyyən dövrlərində Müəllimə daha böyük ehtiyac duyulub. Azərbaycan xalqı da 19-cu əsrin sonlarında və 20-ci əsrin əvvəllərində müəllimlərə çox böyük ehtiyac duyurdu. Böyük mütəfəkkirlər Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Mirzə Ələkbər Sabir, Cəfər Cabbarlı, Mirzə Fətəli Axundov və digərləri xalqın cəhalətdən qurtulması, mövhumata yox, elmə doğru getməsi üçün mübarizə aparırdılar. Onlar ən böyük müəllimlər idi.

Tarixi həqiqətdir ki, xalqımız məhz belə aparıcı ziyalıların, mütəfəkkirlərin çağırdığı yolla gedəndən sonra inkişaf etdi və qısa zamanda dünya xalqları arasında öz layiqli yerini tutdu.

Sovet dövründə respublikada elm-təhsil ocaqlarının, kitabxanaların tikintisi işini böyük vüsət aldı, azərbaycanlı tələbələrin SSRİ-nin və dünyanın inkişaf etmiş digər ölkələrinin nüfuzlu ali təhsil ocaqlarında təhsil alması işi genişləndi.

Artıq ötən əsrin ortalarında Azərbaycan əhalinin təhsilə cəlb olunma səviyyəsinə, əhalinin hər on min nəfərinə düşən elmi işçi, tələbə və müəllim sayına görə ən inkişaf etmiş ölkələri belə qabaqlayaraq dünyada ilk yerlərdən birini tuturdu.

20-ci illərədək bir nəfər də olsun akademiki, professoru, elmlər doktoru olmayan, əhalisinin 99%-nin oxuyub-yazma bilmədiyi, cəmi 100 nəfər azərbaycanlı müəllimi olan, 800 min uşağının məktəbin nə olduğunu bilmədiyi respublika qısa müddət sonra əhalisi 100% savadlanmış, onlarla universiteti, elmlər akademiyası, elmi-tədqiqat institutları, hətta kosmik tədqiqatlar mərkəzi olan intellektuallar ölkəsinə çevrildi. Hələ də Azərbaycan xalqı savadlı insanların, ali təhsillilərin say nisbətinə görə, dünya xalqları arasında ön sıralarda dayanır.

Müəllim ucalığı haqda saysız poeziya, nəsr nümunələri, bədii və elmi əsərlər yazılıb, filmlər çəkilib. "Bizim Cəbiş Müəllim" filmindəki obraz isə Azərbaycan Müəllimi üçün etalondur. Bu obraz həm də bir nümunədir - əsl Müəllim nümunəsi

Müəllimlər günü münasibətilə bütün vicdanlı müəlimləri təbrik edirəm.

# Azərbaycan: etnik və dini dözümlülük simvolu

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb*






Azərbaycanın Qarabağda etnik təmizləmə apardığını iddia edən qüvvələr tarixən bu torpaqlarda bütün dinlərin və bütün millətlərin qarşılıqlı sülh şəraitində yaşadığını niyə unudur? Ermənilərin Qarabağ iddiası baş qaldırmasa idi, bu, elə beləcə də davam edəcəkdi, ermənilərlə heç bir problem yaşamayan azərbaycanlılar tarixi Azərbaycan torpaqlarında onlara heç vaxt etnik və dini ayrıcalıq hiss etdirməyiblər.Tarix boyu Azərbaycan xalqının mədəniyyətinin əsas xüsusiyyətlərindən biri olan tolerantlığa xüsusi dəyər verilib. Fərqli mədəniyyət və inancların nümayəndələri ilə birlikdə, eyni dövlətdə, eyni hökumətin nəzarətində tolerantlıq çərçivəsində həyatlarını harmoniya içində davam etdiriblər. Qədim Azərbaycan İslamı qəbul etdikdən sonra da tolerantlıq, bərabərlik, ədalət və insan sevgisi kimi təməl dəyərlərini İslam inanc və prinsipləri ilə qarışdırıb, öz tarixindən müxtəlif mədəniyyət və adət-ənənələri bu inancla bütünləşdirib, özünəməxsus İslam təsviri və anlayışı yaradıb.Multikulturalizmin müxtəlif modelləri- ABŞ, İsveç, Avstraliya, Kanada modeli kimi növləri olmasına baxmayaraq, Azərbaycanın dünyaya təqdim etdiyi model bir çox mütərəqqi dövlətlər tərəfindən rəğbətlə qarşılanır və nümunə kimi tətbiq edilməkdədir. Bu model tarixi köklərə bağlı olduğu üçün daha dayanıqlıdır.

ABŞ-ın Yuta və Oreqon ştatlarının Senat və Nümayəndələr Palataları tərəfindən Azərbaycanın tolerantlıq modelini təqdir edən geniş bəyannamənin qəbul edilməsi qeyd edilənlərə bariz nümunədir.Beləliklə, tarixi mənşəyi baxımından cəmiyyətimizin təməl dəyərlərindən biri olan tolerantlıq anlayışı müxtəlif amillərin təsiri ilə xalqımıza xas xüsusiyyət qazanıb. Ölkəmizdə tolerantlığın müxtəlif inanclara, mədəniyyətlərə və həyat tərzlərinə hörmətlə yanaşması anlamında dərk edilməsi, həm də sosial sabitliyə və həmrəyliyə töhfə verməklə cəmiyyətin sistemli bir bütövlükdə mövcudluğunu qoruyub saxlayıb. Müqəddəs Ramazan bayramında ölkə başçısı İlham Əliyevin verdiyi ziyafət süfrəsində bütün dinlərin liderlərinin təmsil olunması Azərbaycandakı tolerantlıq anlayışının, sadəcə, sənədlərdə deyil, real həyatda olduğunu görmək olur.Həmçinin, biz Azərbaycandakı tolerantlığın ən güclü nümunəsini 44 günlük müharibədə də gördük. Dinindən, milliyyətindən asılı olmayaraq bütün gənclər vətən üçün cəbhəyə axışdı. Eynilə I Qarabağ Müharibəsində olduğu kimi, II Qarabağ Müharibəsinin də dini-etnik mənsubiyyəti fərqli olan qaziləri, qəhrəmanları, şəhidləri oldu.Azərbaycanın zəngin mədəni-mənəvi irsə və tolerantlıq ənənələrinə malik olması bu gün beynəlxalq aləmdə etiraf edilən həqiqətlərdəndir. Azərbaycan mövcud milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti olan çoxmillətli, çoxkonfessiyalı ölkə kimi dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanıdır. Qərbdə ”tolerantlıq” sözü ilə ifadə edilən bu anlayışın bildiyimiz mənası ”başqalarının fikirlərini, düşüncələrini və hisslərini bizimkinə zidd olsa belə, qəbul etmək, dözmək və hörmət etmək” kimi şərh edilir. Azərbaycan xalqının mədəniyyətində tolerantlığın inkişaf tarixi diqqətlə araşdırıldıqda, bu anlayışın inanc və mənəvi baxımdan özünəməxsusluğu aydın görünür.İslam ənənəsinin formalaşdırdığı əxlaq çərçivəsində tolerantlığın dəyəri nəticələrindən asılı olmayaraq dini-mənəvi vəzifə kimi qəbul edilir. Bizim mədəniyyətimizdə özünəməxsus məzmun və məna daşıyan tolerantlıq anlayışı qərbdə maarifçiliklə başlayan tolerantlıq təcrübələrindən daha uzun bir tarixə malikdir. Ona görə də qədim türk-islam mədəniyyətinin hər mərhələsində tolerantlığın və insanın başqa dinə mənsub insana olan hörmət və sevgisinin tərənnüm edilməsi bu təməl dəyərlərə verilən önəmin göstəricisidir.





Tolerantlığa əsaslanan cəmiyyətlərin formalaşmasında bir çox amillərlə yanaşı, qədim azərbaycanlıların İslam dinini qəbul etməzdən əvvəlki dini inanc və adətlərinə bağlı olması böyük təsir göstərib. Tarix boyu təktanrıçılığa inanan xalqımız İslam dininin mənimsənilməsində buna görə çətinlik çəkmədi. Allah-insan münasibətlərinin müəyyənləşdirilməsində dinin qaydaları, təbliğ etdiyi doğrular mühüm əhəmiyyət kəsb edir. Həmçinin unutmaq olmaz ki, qədim türk mədəniyyət ənənəsində tolerantlıq insan olmaq oxu üzərində inkişaf edib. Öz şərəfli tarixi boyunca Azərbaycan onlarla xalqı, fərqli dinlərə mənsub toplumları bir dövlət altında birləşdirib, onların sülh və qardaşlıq şəraitində yaşamasına şərait yaradıb.

***Lalə Mehralı***

## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Rayon və kəndlərdəki gənclər niyə Bakıya axın edir?



“Azərbaycan dövləti tərəfindən regionların inkişaf etdirilməsi ilə əlaqədar xüsusi proqramlar həyata keçirilib. Demək olar ki, bizim əksər rayon və şəhərlərimizdə müasir infrastruktur yaradılıb. Hal-hazırda da bu işlər davam etdirilməkdədir. Ancaq təəssüflər olsun ki, gənclərin böyük əksəriyyəti Bakı şəhərinə üz tuturlar. Bakıdan da bir çox gənclərimiz fərqli şəhərlərə və ölkələrə yollanır. Əslində dünyanın hər bir yerində bu proses var və normaldır. Amma rayon yerlərindən Bakıya sürətli şəkildə gənclərin köçməsinin qarşısını almaq üçün ilk növbədə paytaxtdan kənarda olan rayon və şəhərlərdə iş yerlərinin sayının artırılması məqsədilə müxtəlif layihələr həyata keçirilməlidir”. Bu sözləri SİA-ya açıqlamasında deputat Naqif Həmzəyev deyib.

Onun sözlərinə görə, ilk növbədə sahibkarlığın inkişaf etdirilməsi üçün vergi güzəştləri tətbiq edilməlidir: ”Paytaxtdan kənarda olan ərazilərdə daha cəlbedici kreditlər verilməlidir. Gənclər də belə olduğu təqdirdə paytaxtdan kənarda qalıb yaşamaq istəyərlər. Bu onlar üçün əla fürsət olardı. Bununla yanaşı biz paytaxtdan kənar olan ərazilərdə də sosial həyatı daha yaxşı formada təşkil etməliyik. Bacardığımız qədər çalışmalıyıq ki, gənclərin asudə vaxtlarını səmərəli keçirməsi üçün lazımi şəraiti qura bilək”.

Deputat sözlərinə belə davam edib: ”Həmçinin, universitetlərin paytaxtdan kənara köçürülməsinin də bu prosesə çox böyük töhfə verə biləcəyini düşünürəm. Çünki əgər yüksək imkanlara malik universitetlər digər rayon və şəhərlərdə olsa, gənclər də ora üz tutacaq.

Bütün bunlarla yanaşı çalışmalıyıq ki, gənc alimlərimizin də paytaxtdan kənarda yaşamasına şərait yaradaq. İlk öncə onların mənzil şəraitinin yaxşılaşdırılması üçün müəyyən güzəştlər tətbiq edilməlidir. Əgər biz ipotekaların verilməsində universitetlərdə deyil, orta məktəblərdə çalışan müəllimlər üçün müəyyən güzəştlərin olduğunu görürdüksə, sırf universitetdə işləyən, elmi dərəcəsi olmayan gənclər üçün bu güzəştlərin olmadığı faktı ilə rastlaşdıq. Düşünürəm ki, ipotekanın verilməsində də müəyyən yumşaldılmalar və güzəştlər edilsə, gənc ailələr paytaxtdan kənarda öz həyatlarını qurub davam edərlər. Bir sözlə biz paytaxtda gənclər üçün yaradılan güzəşt və şəraitlə paytaxtdan kənarda olan arasında fərqlər yaratmalıyıq ki, onlar üçün burada yaşamaq daha cəlbedici olsun. Əgər bunları etsək, gənclərin Bakıya sürətli köçünün qarşısını almış olarıq”.

***Ayşən Vəli***

# DİQQƏT: Bu amillər süd vəzi xərçənginə zəmin yaradır!



“Çoxsaylı abortlar, hamiləlikdən qorunmaq üçün həblərin uzunmüddətli qəbulu və digər amillər süd vəzi xərçənginə zəmin yaradır”. SİA xəbər verir ki, bunu Azərbaycan Tibb Universitetinin Onkologiya kafedrasının dosenti Həqiqət Vəliyeva deyib.

Onun sözlərinə görə, süd vəzi xərçəngi ən çox rast gəlinən xərçəng növlərindən biridir: ”Bu növün rast gəlindiyi qadınların çoxu 50 yaşdan yuxarıdır, lakin daha gənc qadınlarda da süd vəzi xərçənginə rast gəlinə bilər. Xəstəlik erkən mərhələdə aşkarlandıqda müalicə yolu ilə sağalma ehtimalı yüksəkdir. Bu səbəbdən qadınlar mütəmadi olaraq bu məsələyə həssas yanaşmalı, vaxtında həkimə müraciət etməlidir”.

Mütəxəssis qeyd edib ki, süd vəzi xərçəngi riskində genetik faktor da mühüm amillərdəndir: Eyni zamanda əvvəllər süd vəzi xərçəngi diaqnozunun qoyulması və ya xoşxassəli süd vəzi düyününün olması, həddindən artıq çəkili olmaq, spirtli içki içilməsi və s. də risk faktorlarındandır. Süd vəzisindəki xoşxassəli şişlər bir fazi halda bədxassəli şişə çevrilə bilər. Şişləri azaltmaq, yaxud xoşxassəli şişin bədxassəli şişə keçməməsi üçün çox çəkili olmamaq, spirtli içki və ya siqaretdən istifadəni dayandırmalıyıq. Sağlam həyat tərzi önəmlidir”.

H.Vəliyeva bildirib ki, kişilərdə rast gəlinən süd vəzi xərçəngi qadınlara nisbətdə daha aqressiv olur: ”Bu, adətən irsi xarakter daşıyır. Eyni zamanda kişilər arasında bu xəstəliyin rastgəlinmə yaşı 5-10 il əvvəl olur. Onu da qeyd edim ki, qan azlığının süd vəzi xərçənginə təsiri yoxdur. Sübut olunub ki, spirtli içki qəbulu və siqaret çəkilməsi süd vəzi xərçəngi riskini artırır. Misal olaraq, gün ərzində bir qədəh şərab içilməsi süd vəzi xərçəngini 10 % artırmış olur”

# Bu il 100 uşaq övladlığa verilib, 126-sı ailəsinə qaytarılıb



2023-cü ilin ötən dövründə 100 uşaq övladlığa verilib. Onlardan 51 nəfəri oğlan, 49 nəfəri isə qızdır. Bu barədə SİA-ya Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən xəbər verilib. Övladlığa verilən uşaqlardan 66 nəfəri yaxın qohumu tərəfindən övladlığa götürülüb. Prezident İlham Əliyevin Fərmanı əsasında 1 noyabr 2019-cu il tarixdən övladlığagötürmə sahəsində idarəetmə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə olunub. Nazirlik tərəfindən bu sahədə idarəetmə və xidmətlərin elektronlaşdırılması təmin edilib.

Uşaqların övladlığa verildiyi ailələrdə vəziyyətinin öyrənilməsi üçün onlar 18 yaşına çatanadək övladlığagötürmənin birinci ilində hər rüb, növbəti illərdə isə ildə bir dəfə olmaqla monitorinqlər aparılır. Reinteqrasiya tədbirləri də davam edir. Həmin tədbirlər nəticəsində bu il dövlət uşaq müəssisələrindən 126 uşaq öz ailəsinə qaytarılıb. Həmin uşaqlardan 67 nəfəri oğlan, 59 nəfəri isə qızdır.

## BAŞSAĞLIĞI

Mehman Əkbərov, İsmayıl Hüseynov Geologiya-mineralogiya elmləri doktoru, SOCAR-ın 1-ci vitse-prezidenti

**Xoşbəxt Yusifzadənin**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə, yaxınlarına başsağlığı verirlər.

***Allah rəhmət eləsin.***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**